

"SƏS" qəzeti mənim üçün ən əziz qəzetdir

## Tərəqqi və inkişafa gedən yol – Milli Qurtuluş Günü




3

SƏS
№ 106 (7031
14 iyun 2024-cü il.
Qiyməti 60 qəpik

## Ölkəmiz palçıq vulkanlarının nadir inkişaf regionu kimi tanınır

2



*Prezident İlham Əliyev Palçıq Vulkanları Turizm Kompleksinin açılışında iştirak edib*

# ABŞ oyunlarında ALƏTƏ ÇEVRİLƏN ERMƏNİSTAN



6

### Azərbaycan ilə Özbəkistanın hakim partiyaları arasında Əməkdaşlıq Memorandumu imzalanıb



5

### Misirli analitik: "Əliyev heç vaxt hansısa ölkəyə boş yerə səfər etmir"



9

### Qohum evliliyi: göz yaşı ilə ötən ömür...



9

## Bu şəxslər mənzil növbəsinə dayana biləcək



13

## Yaşamağım üçün qan verərsən?



15





# Ölkəmiz palçıq vulkanlarının nadir inkişaf regionu kimi tanınır

**_Azərbaycan Prezidenti İlham Əliyev Abşeron rayonu ərazisində Palçıq Vulkanları Turizm Kompleksinin açılışında iştirak edib. Azərbaycan Dövlət Turizm Agentliyinin sədri Fuad Nağıyev dövlətimizin başçısına kompleksdə görülmüş işlər barədə məlumat verdi._**

## *Prezident İlham Əliyev Palçıq Vulkanları Turizm Kompleksinin açılışında iştirak edib*






Qeyd edək ki, təbiətin maraqlı hadisəsi olan palçıq vulkanları dünyanın bir çox ölkəsində mövcuddur. Azərbaycan palçıq vulkanlarının nadir və klassik inkişaf regionu kimi tanınır. Yer kürəsində məlum olan 2 mindən artıq palçıq vulkanının 350-dən çoxu Azərbaycanın şərqində və Xəzər akvatoriyasında yerləşir. Palçıq vulkanları əsasən Abşeron yarımadası, Bakı ətrafındakı adalar qrupu, Şamaxı, Qobustan və cənub-şərqi Şirvanda yayılıb. Palçıq Vulkanları Turizm Kompleksində "Qılınc" palçıq vulkanını yaxından izləmək mümkündür. Bu vulkanlar bir sırada düzülmüş 8 sopkadan (təpə) ibarətdir. Sopka brekçiyası (iri qrunt süxurları) böyük bir sahəni əhatə edərək şimal-şərqə qədər uzanan iki zolaq əmələ gətirib. İyirmi hektar sahəyə yayılan brekçiyanın uzunluğu 300-500 metrdir. Bu zolaqların eni isə bəzi yerlərdə 50 metrə çatır. Ümumilikdə ölkəmizdəki vulkanların 60 faizi aktiv sayılsa da, elmi mənbələrdə "Qılınc" vulkanının güclü püskürmələri barədə məlumata rast gəlinmir.

Prezident İlham Əliyevə məlumat verildi ki, Palçıq Vulkanları Turizm Kompleksi 12 hektar ərazidə tikilib. Burada inzibati bina inşa olunub. Yaradılan yeni turizm infrastrukturu yerli əhali, xüsusilə ətraf ərazilərdə məskunlaşmış insanlar üçün 60-dan çox yeni iş yerinin açılmasına imkan verib. Kompleksin Turizm İnformasiya Mərkəzi sərgi zalından və emalatxanadan ibarətdir. Mərkəzdə palçıq vulkanlarının xüsusiyyətləri, təbii və müalicəvi özəllikləri haqqında məlumat əldə etmək, palçıq vulkanının maketi ilə tanış olmaq mümkündür. Burada, həmçinin Azərbaycanın hər yerindən toplanmış 80-ə yaxın nadir mineral nümayiş etdirilir. Sərgidə mineral nümunələrinin adı, kimyəvi tərkibi və götürüldüyü yatağa dair məlumatlar da yer alır. Emalatxanada isə dulusçuluq və neftlə rəsmlərin çəkilməsi üzrə master-klaslar təşkil ediləcək.

Kompleksin Təbiət tarixi sərgi zalı eksponatların zənginliyi ilə böyük maraq doğurur. Sərginin "Böyük pişiklər", "Qobustan faunası", "Azərbaycanın vəhşi heyvanlarının ayaq izləri", "Azərbaycanın həşərat dünyası", "Kiçik ölçülü heyvan skeletləri" guşələrində Azərbaycan və dünya faunasına aid vəhşi və ev heyvanlarının skeletləri, Azərbaycan təbiətinə aid olan həşəratlar, suda-quruda yaşayanlar və sürünənlər sərgilənir. Sərgidə nümayiş etdirilən bütün heyvan skeletləri və canlılar orijinal eksponatlardır. Bu eksponatlar bioetika normalarına uyğun olaraq hazırlanıb və bioloji ölümdən sonra Azərbaycan mütəxəssisləri tərəfindən onilliklər ərzində müxtəlif yerlərdən toplanmış heyvan skeletlərindən ibarətdir. Təbiət tarixi sərgisi Azərbaycanın faunasının zənginliyini, biomüxtəlifliyini nümayiş etdirir. Sərgidə Azərbaycan və dünya faunasına aid 98 heyvan skeleti, 870 müxtəlif növ qurudulmuş həşərat, xüsusi məhlulda nümayiş etdirilən 57 canlı, bir sıra sürünən və suda-quruda yaşayan heyvanlar, həmçinin paleontoloji eksponatlar nümayiş etdirilir. Uşaqların və məktəblilərin ətraf aləm haqqında maraqlarını artırmaq və onlarda heyvan skeletləri barədə təəssürat yaratmaq məqsədilə divarlarda müxtəlif heyvanların şəkilləri və illüstrasiyaları sərgilənir. Burada, həmçinin milli parklarımızda dövlət mühafizəsinə götürülmüş bir sıra heyvanların, o cümlədən bəbir, bezoar keçisi, ceyran, Xəzər suitisinin arealları haqqında məlumat verilir.

Kompleksdə yaradılmış Minerallar sərgisində isə Azərbaycan ərazisindən tapılan 80-ə yaxın fərqli növ mineral nümayiş etdirilir. Ziyarətçilər burada ölkəmizin hər yerindən - Qobustandan tutmuş Naxçıvana qədər əksər bölgələrdən gətirilmiş gözəl və nadir qiymətli daşlar, kristallar və geoloji nümunələri görə bilərlər. İki hissədən ibarət sərginin birinci bölməsində palçıq vulkanlarının püskürdüyü qaya brekçiyasının nümunələri, digər bölmədə isə ölkəmizdəki müxtəlif faydalı qazıntı yataqlarında tapılan minerallar nümayiş etdirilir. Burada ziyarətçilərə Yerin təki, geoloji proseslər, süxurların və mineralların əmələ gəlməsi haqqında da məlumatlar təqdim olunur. Palçıq vulkanlarının ətrafında müasir turizm infrastrukturunun yaradılması bu ərazilərdə yerləşən vulkanlar haqqında ictimai maarifləndirmənin artmasına və onların təbiət irsi kimi təbliğinə şərait yaradacaq.

Qeyd edək ki, ərazidə 110 nəfərlik restoran da tikilib, turistlərin vulkanları izləməsi üçün piyada yolu çəkilib. Burada panoramlı müşahidə nöqtəsi və meydança da salınıb. Bu meydançaya qalxmaqla hündürlükdən ətrafdakı palçıq vulkanlarını seyr etmək, maraqlı vaxt keçirmək mümkündür.

Palçıq Vulkanları Turizm Kompleksinin ərazisində turistlərin rahat gediş-gəlişini təmin etmək üçün avtodayanacaq salınıb. Əyləncəli vaxt keçirmək istəyən turistlər ekoloji cəhətdən təmiz nəqliyyat vasitəsi olan kvadrosikllərlə bu çətin relyefli ərazidə tura qoşulmaq imkanı əldə edəcəklər.




# Tərəqqi və inkişafa gedən yol – Milli Qurtuluş Günü

***Azərbaycan dövlətini və xalqını zamanın ən çətin sınaqlarından çıxararaq, ölkənin ictimai-siyasi, iqtisadi və mədəni-mənəvi tərəqqisinə nail olmuş Ulu Öndər Heydər Əliyev ölkənin həyatında böyük uğurlara nail olmuşdur. Ümummilli Lider Azərbaycanın rəhbəri olduğu bütün dövrlərdə iqtisadiyyatın, elmin, təhsilin, mədəniyyətin, səhiyyənin inkişafına diqqət göstərmiş və heç bir zaman qayğısını əsirgəməmişdir. Ulu Öndər Heydər Əliyevin zəngin dövlətçilik fəaliyyətinin ayrı-ayrı istiqamətlərini təhlil etdikdə Ulu Öndərin ömrünü həqiqətən də xalqına həsr etdiyinin şahidi oluruq.***

Xalqın tarixinə iz salan 15 iyun Azərbaycanın ictimai-siyasi, mədəni həyatında hadisəyə çevrildi. Həmin tarixi gün - Ümummilli Lider Heydər Əliyevin hakimiyyətə qayıdışı ilə Azərbaycanda çevriliş baş verdi. Həmin tarixə qədər son illərdə baş verən hadisələr, xalqı bütövlükdə, uçuruma sürükləyən məqamlar istər ölkə daxilində, istərsə də xaricində onun sütunlarını zəiflətməyə başlamışdı. Belə bir zamanda xalqın təkidi və istəyi ilə hakimiyyətə gələn Ulu Öndər qayıdışı ilə böyük nailiyyətləri Azərbaycan salnaməsinə daxil etdi. Heydər Əliyev Ona etimad göstərənlərin ümidini tez bir zamanda doğrultdu. Zaman ən böyük hakim olduğundan qısa bir məsafədən Azərbaycanın şanlı və silinməz tarixi yazıldı. Ölkə daxilində aparılan məqsədyönlü işlər, eləcə də, sərhədlərdən kənarda Azərbaycanın yürütdüyü siyasət müstəqil dövlətin təməlinin sütunlarını möhkəmlətdi və əbədiləşdirdi. 15 iyun 1993-cü il tarixində baş verən hadisə - Heydər Əliyevin hakimiyyətə qayıdışı Azərbaycanın müstəqil həyatının yeni səhifələrini yazdı.

Sonrakı illərdə, eləcə də Ulu Öndərin sovet hakimiyyəti illərində Azərbaycana rəhbərliyi dövründə yazılan hər bir tarixi an Heydər Əliyevin müdrik siyasətinin nəticəsində reallaşdı. Azərbaycanın inkişafında yeni bir mərhələ başladı. Yaradılmış baza üzərində Azərbaycanın daha sürətli inkişafı, dünya iqtisadiyyatına inteqrasiyası təmin olundu və Azərbaycan tamamilə yeni bir müstəviyə keçdi. 1993-cü il 15 İyun Azərbaycan xalqının Qurtuluş Günü Azərbaycanın dirçəldilməsinə və intibahına səbəb oldu. Azərbaycan xalqı parçalanmaq təhlükəsindən qurtuldu.

### AZƏRBAYCAN SALNAMƏSİNƏ YAZILAN NAİLİYYƏTLƏR

1993-cü il tarixinə qədər Azərbaycan çox böyük problemlərlə qarşılaşdığından, mədəniyyət müəssisələri artıq dağıdılmağa başlamışdır. Bir çox sahələrin mütəxəssisləri kimi mədəniyyət işçilərinin də vəziyyəti kəskin hal almışdı. Acınacaqlı vəziyyətə düşmüş mədəniyyət müəssisələri yenidən qurulmağa, bərpa və təmir edilməyə başladı. Bu sahədə Ümummilli Liderin imzaladığı çoxsaylı sərəncamlar əsaslı dəyişikliklərlə nəticələndi. Respublikamızda kitabxanalar yaradıldı, muzeylər açıldı, teatr və musiqi ocaqları təmir edildi, eləcə də, ali təhsil ocaqlarına xüsusi diqqət yetirildi. Bütün bunların hər biri Azərbaycanın inkişafına, eləcə də gənc nəslin intellektual səviyyəsinin yüksəlməsinə təkan verdi. Mövcud mədəniyyət müəssisələri təmir edildi, əhaliyə göstərilən mədəni xidmət yüksəldildi. Tarixi muzeyşünaslıq, diyarşünaslıq müəssisələri yaradıldı.

Heydər Əliyevin müvafiq fərmanlarına əsasən, Məhəmməd Füzulinin 500 illik yubileyinin İraq, İran, Türkiyə, Fransa və Rusiyada, dünya şöhrətli müğənnimiz Bülbülün 100 illik yubileyinin Moskvada, Tiflisdə və Ankarada, unudulmaz bəstəkarımız Qara Qarayevin 80 illik yubileyinin Moskvada və Parisdə, Rəşid Behbudovun 80 illik yubileyinin Moskvada, Azərbaycan xalqının milli eposu "Kitabi-Dədə Qorqud" dastanının 1300 illik yubileyinin Fransada yüksək səviyyədə qeyd olunması Azərbaycan mədəniyyətinə Heydər Əliyevin diqqət və qayğısının təcəssümüdür. Bakıda qeyd olunan tanınmış sənət adamlarının, xalq artistlərinin tarixi yubileyləri - Şövkət Ələkbərovanın, Qəmər Almaszadənin, Leyla Vəkilovanın, Nəsibə Zeynalovanın, Tofiq Quliyevin və başqalarının yaradıcılığına həsr olunmuş təntənəli gecələr də milli mədəniyyətimizin tarixinə yazılan uğurlu hadisələr sırasına daxil olmuşdur. Bu tədbirlərin hər birində Ümummilli Liderimiz Heydər Əliyevin şəxsən iştirak etməsi dövlət rəhbəri tərəfindən sənətə, sənətkara verilən yüksək qiymətdir.

Dünyanın ən müxtəlif ölkələrində Azərbaycan mədəniyyəti və incəsənəti günləri keçirilmişdir. Buna misal olaraq Avropanın və Asiyanın bir çox ölkələrini, eynilə Rusiya, Moldova, Ukrayna, Özbəkistan, Gürcüstan və s. ölkələri göstərmək olar. Tanrının xalqımıza bəxş etdiyi Heydər Əliyev hakimiyyətə qayıdışı ilə Yeni Azərbaycanı yaratdı. Bugünkü Azərbaycan Onun şah əsəridir. Heydər Əliyevin hakimiyyətə qayıdışı ilk olaraq ölkədə stabitliyi təmin etdi. Yaradıcı mühit formalaşdı. Lazımsız senzura ləvğ olundu.

Məlumdur ki, mədəniyyət hər bir xalqın mənəvi dünyasının, milli mövcudluğunun əsas atributlarından biridir. Sovet dövründə bütün beynəlxalq mədəni əlaqələrin Moskva tərəfindən müəyyən edilməsinə və tənzimlənməsinə baxmayaraq, özünəməxsusluğu ilə seçilən Azərbaycan incəsənəti beynəlxalq arenaya çıxa bilmiş və bu çıxış öz təcəssümünü Hollandiya, İtaliya, Portuqaliya kimi ölkələrdə Azərbaycan Mədəniyyət Günlərinin keçirilməsində, Azərbaycan Dövlət Opera və Balet Teatrının Fransa və digər ölkələrdə qastrollarında tapmışdır. Azərbaycan müstəqillik əldə etdikdən sonra beynəlxalq mədəni əlaqələr yeni xarici siyasətin başlıca alətlərindən birinə çevrildi. Heydər Əliyev tərəfindən həyata keçirilən mədəniyyət siyasəti beynəlxalq münasibətlərdə də öz əksini tapmışdır. Bir çox xarici ölkələrlə regional və şəhərlər səviyyəsində əlaqələr nəzərə çarpacaq dərəcədə gücləmişdir.

Mədəni irsimizin qorunub saxlanmasında, inkişaf etdirilməsində, onun geniş təbliğində, dünya miqyasında şöhrət tapmasında böyük şəxsiyyət Heydər Əliyevin əvəzsiz xidmətlərinin nəticəsi olaraq Azərbaycan mədəniyyəti dünya məkanında birmənalı olaraq tanınır.

Qədim zəngin maddi və mənəvi mədəniyyətə malik xalqımız, məhz Ümummilli Liderimiz Heydər Əliyevin mədəniyyət siyasəti nəticəsində öz varlığı, mənəvi irsi, keçmişi ilə fəxr edir. Ulu Öndər Heydər Əliyev Azərbaycan mədəniyyətinin və mənəviyyatının himayədarı kimi tarixə iz saldı. Görülən işlərin məntiqi oaraq belə nəticəyə gəlmək mümkündür ki, Azərbaycan mədəniyyətinin Heydər Əliyev qədər əsl himayədarı, böyük qayğıkeşi olmayıb. Heydər Əliyevin xidmətləri nəticəsində Azərbaycan mədəniyyəti, sözün həqiqi mənasında, yüksəliş dövrü keçib. Bu yüksəliş dövründə mədəniyyət və incəsənətimizin aparıcı simalarına göstərilən qayğı da diqqəti çəkən məqamlardandır. Ölkəmizin ictimai-mədəni həyatında daim fəal rol oynamış Azərbaycan teatr sənətinə dövlətimiz tərəfindən daha bir diqqətdir.

### MƏDƏNİYYƏTİN MADDİ-TEXNİKİ BAZASI MÖHKƏMLƏNDİRİLİB

Ulu Öndərin siyasətini davam etdirən Azərbaycan Prezidenti İlham Əliyev tərəfindən mədəniyyət və incəsənətimizə böyük önəm verilir.

Azərbaycan Prezidenti İlham Əliyevin apardığı məqsədyönlü siyasət və mədəniyyətə göstərdiyi qayğı xalqımızın milli-mənəvi dəyərlərinin qorunması və beynəlxalq səviyyədə təbliğinə istiqamətlənib. Belə ki, mədəniyyətin elə bir sahəsi yoxdur ki, onun inkişafı ilə bağlı Dövlət Proqramı qəbul edilməsin. Teatr, kino, musiqi, milli-mənəvi dəyərlərimizin digər sahələrini əhatə edən uzunmüddətli proqramlar bu sahələrin yenidən qurulmasına imkan yaradır, ayrılan dövlət vəsaitləri hesabına mədəniyyətin maddi-texniki bazası möhkəmləndirilir. Təkcə paytaxtda deyil, regionlarda da mədəniyyət müəssisələrinin təmirinə diqqət artırılıb. Paytaxtımızda, region mərkəzlərində teatrlarımızın binası təmir olunur, müasir üslubda yenidənqurma işləri aparılır. Gənc Tamaşaçılar Teatrı, Rus Dram Teatrı, Milli Akademik Dram Teatrı əsaslı təmirdən sonra qapılarını tamaşaçıların üzünə açıb. Muzeylərimiz, kitabxanalarımız yenidən qurulur. Bu gün regionlarımızda yaradılan Heydər Əliyev muzeylərinə əhali xüsusi maraq göstərir. Bu muzeylərdə Ulu Öndərin həyat və fəaliyyətini əks etdirən eksponatlar gənc nəslin tərbiyəsində əhəmiyyətli rol oynayır. Azərbaycanda yeni üslubda olan orijinal Xalça Muzeyi üçün yeni bina inşa edilib. Özünəməxsus üslubda inşa edilən bu muzey orijinal memarlıq üslubuna görə diqqəti cəlb edir.

Mədəniyyət və incəsənətin inkişafını stimullaşdırmaq dövlət siyasətində xüsusi əhəmiyyət kəsb edir. Belə ki, mədəni və tarixi irsin mühafizə olunması, yaradıcılığın dəstəklənməsi, kadr hazırlığı və gənc istedadların dəstəklənməsi, milli sənətin inkişafı və s. diqqətdə dayanır. Göründüyü kimi, Azərbaycan milli mədəniyyətinin inkişafı dövlət mədəniyyət siyasətinin əsasında dayanan prioritet məsələlərdəndir.

### İNKİŞAFIN, VƏTƏNDAŞ HƏMRƏYLİYİNİN TƏMİN OLUNDUĞU GÜCLÜ DÖVLƏT

Ulu Öndər Heydər Əliyev tərəfindən qorunub-saxlanılan müstəqilliyimiz bu gün Azərbaycan Prezidenti İlham Əliyevin rəhbərliyi ilə daha da möhkəmləndirilir. Ulu Öndərin quruculuq və inkişaf xəttinin davamçısı olan Cənab İlham Əliyev Onun siyasi kursunu uğurla davam etdirməklə, ölkəmiz sabitliyin və inkişafın, vətəndaş həmrəyliyinin təmin olunduğu güclü dövlətə çevrilib. 2003-cü ildən etibarən, Azərbaycan Respublikasının Prezidenti Cənab İlham Əliyevin uğurlu daxili və xarici siyasəti, məqsədyönlü islahatlar proqramı ölkəmizin bütün sahələrdə yeni nailiyyətlərlə müşahidə olunan sürətli inkişaf mərhələsinə qədəm qoymasına səbəb olub.

Ali Baş Komandan, Prezident İlham Əliyevin rəhbərliyi altında Azərbaycan Ordusunun işğal altında olan torpaqlarımızı azad etmək məqsədilə zəfər yürüşünə başlaması və qırx dörd gün davam edən hərbi əməliyyatlar nəticəsində Ermənistanın 30 il ərzində qurduğu silahlı qüvvələrini darmadağı edərək qələbə qazanması tariximizə Zəfər yazdı. Müzəffər Ali Baş Komandan İlham Əliyev tərəfindən təsdiqlənən mükəmməl hərbi strategiya və taktika döyüş meydanında Azərbaycan Ordusunun "Dəmir yumruq" əməliyyatını sürətlə və az itki ilə həyata keçirməyə imkan verdi. Prezident İlham Əliyevin dediyi kimi, O, ata vəsiyyətini, Ümummilli Lider Heydər Əliyevin ən böyük arzusunu – Qarabağın mənfur düşmənlərdən, işğalçı ermənilərdən azad olunmasını gerçəkləşdirdi. Ermənilərin qoyub qaçdığı hərbi texnikalar, silah-sursatlar bu gün Hərbi Qənimətlər Parkında nümayiş olunur. Burada təqdim edilən eksponatlar Azərbaycana Zəfər qazandıran döyüşləri bir daha göz önündə canlandırmağa imkan verir.

Prezident İlham Əliyevin rəhbərliyi ilə işğaldan azad olunmuş ərazilərimizdə sürətli yenidənqurma və bərpa işləri həyata keçirilməkdədir. 30 il ərzində xarabazara çevrilmiş torpaqlarımızda canlanma müşahidə olunmaqdadır. Qazanılan bütün nailiyyətlərin əsasında Ümummilli Lider tərəfindən müəyyənləşdirilən siyasi kurs və Prezident İlham Əliyevin bu siyasi kursu uğurla davam etdirməsi faktı dayanır.

***Nəzakət ƏLƏDDİNQIZI***

# Yeni Azərbaycan Partiyası ilə "AMANAT" partiyası arasında qarşılıqlı fəaliyyət və əməkdaşlıq haqqında Memorandum imzalanıb







***İyunun 13-də Yeni Azərbaycan Partiyasının (YAP) Mərkəzi Aparatında YAP-ın dəvəti ilə ölkəmizdə səfərdə olan Qazaxıstanın "AMANAT" partiyasının İcra katibi Daulet Kəribekin rəhbərlik etdiyi nümayəndə heyəti ilə görüş keçirilib.***







Qonaqları salamlayan YAP Sədrinin müavini - Mərkəzi Aparatın rəhbəri Tahir Budaqov əvvəlcə məlumat verib ki, "AMANAT" partiyasının nümayəndələri iyunun 15-də Şuşa şəhərində Yeni Azərbaycan Partiyasının təşkilatçılığı ilə "Türk Dövlətləri Təşkilatı: geosiyasi reallıqlar və qlobal kataklizmlər fonunda yeni strateji hədəflərə doğru" mövzusunda keçiriləcək beynəlxalq konfransda iştirak etmək üçün ölkəmizə səfər ediblər.

Tahir Budaqov Azərbaycan ilə Qazaxıstan arasında tarixi köklərə və ortaq dəyərlərə əsaslanan dostluq və qardaşlıq münasibətlərinin nümunəvi xarakter daşıdığını və yüksələn xətt üzrə inkişaf etdiyini bildirib.

Beynəlxalq münasibətlər sisteminin hazırkı reallıqlarının Türk dünyası üçün də yeni çağırışlar yaratdığını söyləyən YAP Sədrinin müavini qeyd edib ki, Azərbaycan ilə Qazaxıstan milli maraqlara əsaslanan siyasət həyata keçirməklə türk dövlətləri arasında münasibətlərin inkişafına və Türk Dövlətləri Təşkilatının gücləndirilməsinə dəyərli töhfələr verirlər: "Prezident İlham Əliyevin qeyd etdiyi kimi, bizim ailəmiz Türk dünyasıdır".

YAP Sədrinin müavini bildirib ki, Azərbaycanın ərazi bütövlüyü və suverenliyinin bərpasından sonra yaranmış reallıqlar nəticəsində Türk dünyasında da münasibətlər keyfiyyətcə yeni mərhələyə yüksəlib: "Ölkələrimizin birliyi Türk dünyasında tərəqqiyə xidmət edir və yeni mərhələdə birgə fəaliyyətimiz Türk Dövlətləri Təşkilatının qlobal güc mərkəzinə çevrilməsinə hədəflənib".

Azərbaycanla Qazaxıstanın hakim partiyaları arasında münasibətlərin inkişafının diqqət mərkəzində olduğunu bildirən Tahir Budaqov "Biz dövlət başçılarının siyasi iradələrinə uyğun olaraq partiyalarımız arasında əməkdaşlığın genişləndirilməsi yönündə sistemli fəaliyyətimizi uğurla davam etdiririk",- deyə bildirib.

O qeyd edib ki, Yeni Azərbaycan Partiyası ilə "AMANAT" partiyası arasında qarşılıqlı fəaliyyət və əməkdaşlıq haqqında Memorandumun imzalanması partiyalararası münasibətlərin inkişafında yeni mərhələnin əsasını qoyacaq, çoxşaxəli əməkdaşlığın əsaslarını daha da möhkəmləndirəcəkdir: "Qarşılıqlı səfərlərin həyata keçirilməsi, fikir və təcrübə mübadiləsinin aparılması, işbirliyinin uğurla davam etdirilməsi həm partiyalar, həm də dövlətlər arasında münasibətlərin inkişafına töhfələr verəcək. Birlikdə görəcəyimiz işlər bizə yeni nailiyyətlər qazandıracaq".

Azərbaycana səfər etməkdən məmnunluğunu bildirən "AMANAT" partiyasının İcra katibi Daulet Kəribek dəvətə, yüksək qonaqpərvərliyə və səmimi münasibətə görə təşəkkürünü bildirib.

Azərbaycan ilə Qazaxıstanın qarşılıqlı faydalı işbirliyinə xüsusi əhəmiyyət verdiklərini qeyd edən D.Kəribek hər iki ölkənin dostluq və tərəfdaşlıq münasibətlərini birgə səylərlə daha da gücləndirmək əzmində olduğunu vurğulayıb. Türk Dövlətləri Təşkilatının ölkələrimiz və bütün Türk dünyası üçün səmərəli əməkdaşlıq platforması olduğunu diqqətə çatdıran İcra katibi qeyd edib ki, TDT-nin beynəlxalq münasibətlər sistemində rolunun artırılması real strateji hədəfdir və bu istiqamətdə səylərin səfərbər edilməsi olduqca önəmlidir.

Daulet Kəribek siyasi partiyaların dövlətlərarası münasibətlərin inkişafında önəmli rol oynadıqlarını vurğulayaraq YAP ilə "AMANAT" partiyası arasında qarşılıqlı fəaliyyət və əməkdaşlıq haqqında Memorandumun imzalanmasının tarixi əhəmiyyətə malik olduğunu bildirib. O, Memorandumda əksini tapan məsələlərin partiyalararası əməkdaşlığın əsas istiqamətlərini və ümumi hədəfləri müəyyən etdiyini diqqətə çatdırıb.

İyunun 15-də Şuşa şəhərində keçiriləcək beynəlxalq konfransa dəvətə görə rəhbərlik etdiyi nümayəndə heyəti adından minnətdarlığını ifadə edən Daulet Kəribek tədbirin bütün iştirakçı tərəflər üçün faydalı olacağına və səmərəli nəticələr verəcəyinə əminliyini ifadə edib.

Qarşılıqlı maraq doğuran digər bir sıra məsələlərin də müzakirə edildiyi görüşün sonunda Yeni Azərbaycan Partiyası ilə "AMANAT" partiyası arasında qarşılıqlı fəaliyyət və əməkdaşlıq haqqında Memorandum imzalanıb. Memorandumu YAP Sədrinin müavini - Mərkəzi Aparatın rəhbəri Tahir Budaqov və "AMANAT" partiyasının İcra katibi Daulet Kəribek imzalayıblar.

# Azərbaycan ilə Özbəkistanın hakim partiyaları arasında Əməkdaşlıq Memorandumu imzalanıb













İyunun 13-də Yeni Azərbaycan Partiyasının (YAP) Mərkəzi Aparatında Sahibkarlar və İş Adamları Hərəkatı – Özbəkistan Liberal Demokratik Partiyasının (UzLiDep) nümayəndələri ilə görüş keçirilib.

Qonaqları salamlayan YAP Sədrinin müavini - Mərkəzi Aparatın rəhbəri Tahir Budaqov diqqətə çatdırıb ki, Özbəkistan nümayəndə heyəti iyunun 15-də Yeni Azərbaycan Partiyasının təşkilatçılığı ilə Şuşa şəhərində "Türk Dövlətləri Təşkilatı: geosiyasi reallıqlar və qlobal kataklizmlər fonunda yeni strateji hədəflərə doğru" mövzusunda keçiriləcək beynəlxalq konfransda iştirak etmək üçün YAP-ın dəvəti ilə ölkəmizə səfərə gəlib.

Tahir Budaqov Azərbaycanla Özbəkistan arasında dostluq, qardaşlıq və tərəfdaşlıq prinsiplərinə əsaslanan münasibətlərin uğurla inkişaf etdiyini bildirib.

Azərbaycanın xarici siyasət kursunda türk dövlətləri ilə əlaqələrin strateji prioritet olduğunu söyləyən YAP Sədrinin müavini bu istiqamətdə Prezident İlham Əliyevin rəhbərliyi ilə mühüm addımlar atıldığını və müsbət nəticələr əldə olunduğunu vurğulayıb.

Tahir Budaqov Azərbaycan-Özbəkistan əməkdaşlığının həm ikitərəfli münasibətlərin inkişafı, həm də Türk dünyasında çoxşaxəli işbirliyinin dərinləşdirilməsi baxımından böyük əhəmiyyətə malik olduğunu qeyd edib.

Öz ərazi bütövlüyü və suverenliyinin bərpasına nail olan Azərbaycanın regional və beynəlxalq miqyasda mühüm geostrateji reallıqlar formalaşdırdığını vurğulayan Tahir Budaqov ölkəmizin tarixi Zəfərinin türk dövlətləri üçün də yeni perspektivlər yaratdığını bildirib. Türk dövlətlərinin ortaq maraqlara əsaslanan birgə təşəbbüslərinin önəminə diqqəti cəlb edən YAP Mərkəzi Aparatının rəhbəri qeyd edib ki, bu kontekstdə Türk Dövlətləri Təşkilatının gücləndirilməsi ölkələrimizin müştərək strateji hədəfidir.

Tahir Budaqov Türk dünyasında hakim siyasi partiyalar, o cümlədən Yeni Azərbaycan Partiyası və Sahibkarlar və İş Adamları Hərəkatı – Özbəkistan Liberal Demokratik Partiyası arasında əlaqələrin genişləndirilməsinin zəruriliyini vurğulayıb. İki hakim partiya arasındakı əlaqələrin Azərbaycan-Özbəkistan münasibətlərinin önəmli tərkib hissəsi olduğunu nəzərə çatdıran YAP Sədrinin müavini partiyalar arasında Əməkdaşlıq Memorandumunun imzalanmasının qarşılıqlı faydalı işbirliyi üçün etibarlı zəmin yaratdığını bildirib. "Bu Memorandum əməkdaşlığımızın əsas istiqamətlərini müəyyənləşdirən mühüm "yol xəritəsi"dir",- deyən Tahir Budaqov qarşıda duran bütün hədəflərin gerçəkləşdiriləcəyinə əminliyini bildirib.

YAP Sədrinin müavini Şuşa şəhərində keçiriləcək beynəlxalq konfransın Türk dünyasında münasibətlərin inkişafı baxımından səmərəli olacağına inamını ifadə edib.

Özbəkistan Respublikası Ali Məclisinin Qanunvericilik Palatası sədrinin müavini, Sahibkarlar və İş Adamları Hərəkatı – Özbəkistan Liberal Demokratik Partiyası Siyasi Şurası İcra Komitəsinin sədri Aktam Xaitov ölkəmizə səfər etməkdən məmnunluğunu bildirib və yüksək qonaqpərvərliyə görə rəhbərlik etdiyi nümayəndə heyəti adından minnətdarlığını ifadə edib.

Özbəkistanın Azərbaycanla münasibətlərə böyük önəm verdiyini diqqətə çatdıran Aktam Xaitov iki dost və qardaş ölkənin əlaqələrinin yüksək səviyyədə olduğunu vurğulayıb. O, "Dövlət başçılarının iradəsi və uzaqgörən siyasəti Özbəkistan-Azərbaycan çoxşaxəli tərəfdaşlıq münasibətlərinə yeni ruh verib",- deyə bildirib.

Azərbaycanın öz ərazi bütövlüyü və suverenliyini bərpa etməsini tarixi nailiyyət kimi xarakterizə edən A.Xaitov özbək xalqının Azərbaycanın haqq işini birmənalı şəkildə dəstəklədiyini söyləyib. O, Azərbaycanın işğaldan azad edilmiş ərazilərində yüksəksəviyyəli quruculuq işlərinin aparılmasının təqdirəlayiq olduğunu vurğulayıb.

Hakim partiyalar arasında əməkdaşlığın önəmini diqqətə çatdıran Aktam Xaitov "Biz partiyalararası əlaqələrə ölkələrimiz arasında tərəfdaşlıq münasibətlərinin inkişaf etdirilməsi vasitəsi kimi baxırıq. YAP və UzLiDep arasında Memorandumun imzalanması ilə partiyalararası əməkdaşlıqda yeni mərhələ başlanır. Dostluğun, qarşılıqlı hörmət və etimadın təzahürü olan Memorandumun uğurla icra olunması bizə yeni nailiyyətlər qazandıracaq, işbirliyimiz səmərəli nəticələr verəcək",- deyə bildirib.

İyunun 15-də Şuşa şəhərində keçiriləcək beynəlxalq konfransa dəvətə görə minnətdarlığını ifadə edən A.Xaitov bu tədbirin Türk dünyası üçün aktual məsələlərlə bağlı fikir mübadiləsinin aparılması və gələcək işbirliyi prioritetlərinin müzakirəsi baxımından böyük önəm daşıdığını söyləyib.

Qarşılıqlı maraq doğuran digər bir sıra məsələlərin də müzakirə edildiyi görüşün sonunda Yeni Azərbaycan Partiyası ilə Sahibkarlar və İş Adamları Hərəkatı – Özbəkistan Liberal Demokratik Partiyası arasında Əməkdaşlıq Memorandumu imzalanıb. Memorandumu YAP Sədrinin müavini - Mərkəzi Aparatın rəhbəri Tahir Budaqov və Sahibkarlar və İş Adamları Hərəkatı – Özbəkistan Liberal Demokratik Partiyası Siyasi Şurası İcra Komitəsinin sədri Aktam Xaitov imzalayıblar.

# ABŞ oyunlarında ALƏTƏ ÇEVRİLƏN ERMƏNİSTAN

***ABŞ dövlət katibinin Avropa və Avrasiya məsələləri üzrə müavini Ceyms O`Brayenin Ermənistana səfəri, onun məhz üç günlük səfərlə Ermənistan və ABŞ arasında iyunun 10-dan 12-dək keçiriləcək Strateji Dialoqun yekun iclasında iştirak etmək üçün gəlişi diqqət mərkəzindədir. Görünür elə bu səfərin diqqət mərkəzində olması, maraq doğurması səbəbindən Ceyms O`Brayen açıqlama verib. ABŞ dövlət katibinin Avropa və Avrasiya məsələləri üzrə müavini məhz Ermənistanın xarici işlər naziri Ararat Mirzoyanla görüşündə Ermənistan-Azərbaycan münasibətlərinin regional gündəliyi, eləcə də Ermənistan və ABŞ arasında ikitərəfli münasibətlərlə bağlı maraqlı açıqlamalarla diqqəti cəlb edib.***



### ABŞ və Ermənistanın bir sövdələşmə niyyətində olduğu göz önündədir

Diqqətə çatdıraq ki, Ermənistan-ABŞ-Avropa İttifaqı formatında 5 aprel tarixində Brüsseldə əldə edilmiş razılaşmalara əməl etməyə ABŞ-ın hazır olduğunu Ceyms O`Brayen elə məhz tədbirin açılışındaca təsdiq edib. "Ölkələrimiz bu gün gömrük sahəsində məlumat mübadiləsinə dair saziş imzalayacaq, bu, yaxın illərdə ticarət və biznesi asanlaşdıracaq, eləcə də bu, Brüsseldə müzakirə olunan vədlərin bir hissəsidir", - deyə ABŞ dövlət katibinin köməkçisi açıq-aşkar şəkildə bəyan edib. Sözsüz ki, onun bəyan etdiyi, açıq şəkildə bildirdiyi artıq ABŞ-ın qarşılıqlı faydalı sövdələşmə istəyində olduğu qənaətinə gəlməyə əsas verir. "ABŞ-Ermənistan strateji dialoqunun formatını ABŞ məhz Strateji Tərəfdaşlıq Komissiyasına dəyişmək istəyir", - deyə amerikalı diplomatın Mirzoyanla təkbətək görüşdə vurğulaması deyilənləri təsdiq edir. Həm də onu təsdiq edir ki, bu görüş və amerikalı diplomatın səfəri ABŞ və Ermənistanın maraqlarına cavab verən qarşılıqlı faydalı sövdələşmə təəssüratı bağışlayır. Çünki görünən odur ki, hər iki tərəf format dəyişikliyinə ümid etdiyini gizlətmir.

### Cənubi Qafqazda möhkəm mövqe qazanmaq istəyini ABŞ qətiyyən inkar edənə oxşamır

Sirr deyil ki, Ermənistan Qərbdə yeni ağalar, yeni sığınacaq axtarışındadır və Rusiyanın təsir orbitindən hər an çıxmağa hazır olduğunu da gizlətmir. Heç rəsmi Vaşinton özü də İrəvanla strateji əməkdaşlıq niyyətini ört-basdır etmək fikrində görünmür. Qarşıya qoyduğu məqsədlərə çatmaq üçün Cənubi Qafqazda daha da möhkəm mövqe qazanmaq istəyini ABŞ qətiyyən inkar da edənə oxşamır. Əksinə, hər iki ölkənin məqsədi, hədəfi bəllidir və hətta ortadadır. Əvvəla, Rusiyanı regiondan sıxışdırıb çıxarmaq və tamamilə Qərb standartlarına uyğun formatlaşdırmaq niyyəti artıq tam aydın şəkildə təzahür edir və görünür. Rusiya ordusunun Ermənistandan tamamilə sıxışdırılaraq çıxarılması istəyi də bu baxımdan səbəbsiz deyil. Görünən odur ki, Amerika gələcəkdə məhz Ermənistanda öz hərbi bazalarını yaratmaq fikrindədir. Deməli, ABŞ üçün öz maraqları yenə də ön plandadır və bunun üçün Ermənistana müdaxilə etmək, İrəvanın işlərinə qarışmaq istəyi artıq belə demək mümkünsə, açıq şəkildə göstərilir.

Bəli, yenə də Amerika Cənubi Qafqaz uğrunda düşünülmüş şəkildə və məqsədyönlü siyasət yürüdür. Bunun fonunda da Ermənistan sırf Amerika maraqlarının dirijoruna çevrilərək, regionda yeganə zəif bənd olduğu qəbul edilir. Bununla da rəsmi Vaşinqton İrəvana çox arxayın şəkildə soxulacağı, maraqları naminə hərəkət edəcəyi qənaətində haqlı olduğunu çoxdan qəbul edir. Çox güman ki, ABŞ hətta Rusiya və İran sərhədlərində xaos yaratmaq üçün Cənubi Qafqazda sabitliyi pozmağa da bərk ümid edir. Hər halda, ABŞ tərəfindən belə "canfəşanlıq" edilməsinin niyə Rusiyanın diqqətindən yayınmadığı da təsadüfi sayıla bilməz. Rəsmi Moskvanın məhz İrəvanda hadisələri "nəzarətdə saxlamaq" planları da əbəs yerə deyil və bunu ermənilər də, amerikalılar da yaxşı başa düşürlər. Elə məhz buna görə də Rusiya hərbi bazasının çıxarılmasına olan maraqları hər iki ölkə açıq şəkildə bildirir.

### Hadisələrin gedişi Vaşinqtonun regionumuzda tam sülhün əldə olunmasında maraqlı olmadığını isbatlayır

Hadisələrin gedişi bir daha təsdiq edir və göstərir ki, ABŞ öz tarixi ənənəsinə uyğun olaraq, heç də bölgədə sülh marağında deyil. Xüsusilə qeyd edək ki, ABŞ-ın Xarici Hərbi Maliyyələşdirmə proqramı çərçivəsində Ermənistana onun qabaqcıl hərbi texnika və ən son texnologiyalara çıxışını asanlaşdırmaq üçün vəsait ayıracağı barədə ortaya çıxan məlumat məhz Vaşinqtonun regionumuzda tam sülhün əldə olunmasında maraqlı olmadığını isbatlayır. Diqqətə çatdıraq ki, Xarici Hərbi Maliyyələşdirmə proqramı ABŞ-ın müttəfiqlərinə və tərəfdaşlarına avadanlıq, təlim və hərbi ehtiyacların alınması üçün qrantlar və ya kreditlər verməklə dəstək olmaq üçün nəzərdə tutulmuş Amerika xarici siyasətinin əsas alətlərindən biridir. O da sirr deyil ki, artıq ABŞ məhz Xarici Hərbi Maliyyələşdirmə proqramı vasitəsilə İrəvanın müasir hərbi texnologiyalara və yüksək texnoloji avadanlıqlara çıxışını asanlaşdırmaq niyyətindədir. Hətta bütün Ermənistan ərazisində GPS Qlobal Mövqe Müəyyənetmə Sistemi texnologiyasından geniş istifadəni sürətləndirmək kimi bir niyyət də istisna edilə bilməz. Deməli, belə nəticə hasil olur ki, ABŞ-Ermənistan strateji dialoqunun formatının Strateji Tərəfdaşlıq Komissiyasına dəyişdirilməsi ilə bağlı ABŞ dövlət katibinin Avropa və Avrasiya məsələləri üzrə müavini Ceyms O`Brayen tərəfindən verilən bəyanatlar ABŞ-dan İrəvanın hərbi ambisiyalarının gələcəkdə mümkün reallaşması ilə bağlı bir mesaj da sayıla bilər.

### "Sülh kəsişməsi" planının "Zəngəzur dəhlizi" sözlərinin silinməsi üçün bir PR kampaniyası olduğu artıq açıqlanıb

ABŞ kimi bir ölkənin maraqları ilə yanaşı, Xarici Hərbi Maliyyələşdirmə proqramı fonunda Ermənistanın da öz maraqları ilə çıxış etməsi başadüşüləndir. Doğrudur, Ermənistan və ABŞ arasında Strateji Dialoqun yekun iclasında Ermənistanın xarici işlər naziri Ararat Mirzoyan nikbin şəkildə Azərbaycanla sülh sazişi imzalamaq üçün "tarixi şans" yarandığını bildirib. Amma bununla yanaşı, eyni zamanda, onun, Ermənistanın bütün regional kommunikasiyaların suverenlik, ölkələrin bərabərliyi və qarşılıqlılığı əsasında açılmasında maraqlı olduğunu ifadə etməsi heç də təsadüfi sayıla bilməz və bu, Ermənistan hökumətinin "Sülh kəsişməsi" təşəbbüsündə öz əksini tapması deməkdir.

Bilirik ki, Ermənistan tərəfi "Sülh kəsişməsi" təşəbbüsü ilə çıxış edib, hansıki bu təşəbbüsü məhz ABŞ da dəstəkləyir və məhz Ermənistanın baş naziri Nikol Paşinyanla və cənab Prezident İlham Əliyevlə üçtərəfli görüşdən əvvəl keçirdiyi mətbuat konfransında dövlət katibi Antoni Blinken bunu açıq şəkildə də bəyan edib. "...Biz "Sülh kəsişməsi" təklifinin əsasında duran ideyaları dəstəkləyirik", deyə Ursula fon der Leyen özü də aprelin 5-də Brüsseldə bildirib. Blinkenin də ifadələrini çox yaxşı xatırlayırıq. "Biz yeni nəqliyyat marşrutları, enerji əməkdaşlığı və telekommunikasiya ilə daha inteqrasiya olunmuş Cənubi Qafqaz görürük. Bu, iqtisadiyyatı şaxələndirməyə, imkanları genişləndirməyə və sülh və barışıq səylərini inkişaf etdirməyə kömək edəcək", deyə Blinken də öz fikirlərini ifadə edib. Göründüyü kimi, erməni tərəfi bu layihənin həyata keçirilməsində Amerikanın dəstəyinə ümid edir. Amma rəsmi İrəvan və ümumilikdə erməni cəmiyyəti bərk yanılır. Ümumiyyətlə, haylar başa düşmək istəmirlər ki, rəsmi Bakı erməni baş nazir Nikol Paşinyanın "Sülh kəsişməsi" planını çoxdan başa düşüb və bunu "Zəngəzur dəhlizi" sözlərinin silinməsi üçün bir PR kampaniyası olduğu açıqlanıb.

### Ermənistan Amerikanın oyunlarına alət olmaqla odla oynayır

Amerikanın öz istəkləri, öz məqsədləri naminə yeritdiyi siyasətlə rəsmi İrəvanın razılaşması təəccüb doğurur. Ona görə təəccüb doğurur ki, amerikalıların belə bir siyasətinə alət olmaq haylar üçün yaxşı heç nə vəd etmir, amma Ermənistan tərəfi ABŞ tərəfindən yürüdülən və rəsmi Vaşinqtonun maraqlarına xidmət edən siyasətin aləti olmağı qəbul edir. Əslində, amerikalılara alət olmaqla Ermənistan odla oynayır. Əvvəla ona görə ki, bir dövlət olaraq, Ermənistan müstəqilliyini, suverenliyini nəini şübhə, ümumiyyətlə, zərbə altında qoyur, çünki rəsmi İrəvan qərarlarının da bundan sonra özü deyil, Vaşinqton tərəfindən veriləcəyinə bununla razılıq verir. Bir ölkənin də öz suverenliyini itirməsi, müstəqilliyini əldən verməsi qədər daha ağır nə isə ola bilməz ki, bunu elə bil haylar ya başa düşə bilmirlər, ya da başa düşmək belə istəmirlər.

Hayların belə alət olmağı qəbul etməsi həm də ona görə odla oynamaq hesab olunur ki, bununla Ermənistan öz daxilində böyük parçalanmalara rəvac vermiş olur, hətta vətəndaş müharibəsinin də yaranmasına zəmin yaradır. Hər halda, ruslarla əlaqələri kəsməyi, rusları regiondan uzaqlaşdırmağı İrəvanın qarşısına tələb olaraq qoyan ABŞ tərəfi də, bu tələbi qəbul edən Ermənistan tərəfi də yaxşı bilir ki, həmin ölkə daxilində Rusiya yönümlü qüvvələr narazılıq ifadə edəcəklər və bu da ən azından ölkənin ictimai-siyasi həyatı üçün arzuolunan hesab olunmur. Digər tərəfdən də Kreml bütün bunlara müşahidəçi mövqedən çıxış edən deyil və Ermənistanda öz rıçaqlarını işə salacaq. İstənilən halda, Moskva sakitcə dayanıb Vaşinqtonun hər şeyi öz əlinə alacağını izləyən deyil. Heç şübhəsiz ki, öz təsir gücü ilə ruslar ən azından hayların başlarına od ələyəcəkləri istisna edilmir və bu barədə çoxdandır ehyam da vurulur. Bu baxımdan da tam əminliklə deyə bilərik ki, Ermənistan Amerikanın oyunlarına alət olmaqla odla oynayır.

***İnam Hacıyev***

# Bütöv Azərbaycanda çalınan SON ZƏNG

***Bu gün Azərbaycanda bütün ümumtəhsil müəssisələrdə onbirillik məktəb həyatının "Son zəng"i çalındı. On bir il elmi biliklərə yiyələnən məktəblilər məzun adını qazandılar. Yaddaşlarda qalacaq bu günün zəngi uşaqlıq və yeniyetməlik dövrünün xatirəsi tək əbədiləşəcəkdir. 2023-2024-cü tədris ilində Bakı Şəhəri üzrə Təhsil İdarəsinin tabeliyindəki ümumi təhsil müəssisələrinin IX siniflərini 43 664, XI siniflərini 28 993, XII siniflərini isə (əyani-qiyabi tam orta məktəb və qiyabi sinifləri) 125 nəfər bitirir.***

Ümumilikdə isə Bakı Şəhəri üzrə Təhsil İdarəsinin tabeliyindəki məktəblərin buraxılış siniflərini 72 min 782 şagird bitirir. Eyni zamanda paytaxtda 42 min 70 nəfər I sinfi başa vurur.

On bir il parta arxasında oturub müəllimlərini həvəslə dinləyən, elmi biliklərə yiyələnən məktəblilər məzun adını qazandılar. Yaddaşlarda qalacaq bu günün zəngi uşaqlıq və yeniyetməlik dövrünün xatirəsi tək əbədiləşəcəkdir. Artıq bu gündən gənclər müstəqil Azərbaycanın müstəqil vətəndaşı kimi həyata qədəm qoyurlar. Artıq neçə ildir ki, ölkəmizdə ümumtəhsil məktəblərində hər il iyunun 14-də son zəng qeyd edilir.





SSRİ dövründə və dövlət müstəqilliyinin bərpasından sonra 2005-ci ilə qədər mayın 25-i, 2005-ci ildən 2016-cı ilə qədər isə mayın 31-də qeyd olunmuşdur.

## TƏHSİL SİSTEMİNİN İNKİŞAFINA YÖNƏLDİLMİŞ DÖVLƏT PROQRAMLARI

Ölkə Prezidenti İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan təhsilinin inkişafı istiqamətində həyata keçirilən tədbirlər gənclərimizin savadlı, rəqabətəqabil, həm də əsl vətəndaş kimi yetişməsində əvəzsiz rol oynayır. Müasir dövrdə ölkələrin inkişaf konsepsiyasını təhsil müəyyənləşdirir. Bu baxımdan, müasir təhsil sisteminin yeni çağırışlara cavab verməsi məqsədi ilə təhsilin normativ-hüquqi bazasının formalaşdırılması, maddi-texniki təminatı istiqamətində Azərbaycan Respublikasının Prezidenti tərəfindən imzalanan sərəncamlar əsasında geniş tədbirlər həyata keçirilib. Ölkəmizdə son illərdə bir sıra dövlət proqramları uğurla icra olunub, təhsilin məzmunu yenilənib, təhsil müəssisələrində informasiya-kommunikasiya texnologiyalarının tətbiqi əhəmiyyətli dərəcədə genişlənib. Təkcə "2007-2015-ci illərdə Azərbaycan gənclərinin xarici ölkələrdə təhsili üzrə Dövlət Proqramı" çərçivəsində gənclərin dünyanın aparıcı ali təhsil müəssisələrində ölkəmiz üçün prioritet hesab olunan ixtisaslar üzrə təhsil alıblar. Təhsillərini yüksək akademik göstəricilərlə tamamlamış məzunların 60 faizi özəl, 40 faizi isə dövlət sektorunda fəaliyyət göstərir. Dövlət büdcəsindən təhsilə ayrılan xərclərin ildən-ilə artırılması da hökumətin bu sahənin keyfiyyətcə yenilənməsi üçün ardıcıl və sistemli fəaliyyət göstərdiyini təsdiqləyir. Ayrılmış vəsaitlər "Azərbaycan Respublikasının təhsil sahəsində İslahat Proqramı"na və "2011-2021-ci illərdə Azərbaycan təhsilinin inkişafı üzrə Milli Strategiya"ya uyğun olaraq, təhsil sisteminin inkişafına yönəldilmiş dövlət proqramlarının və layihələrin həyata keçirilməsinə geniş maliyyə təminatı yaratmışdır. Təhsil sistemində islahatlar nəticəsində 15 yaşdan yuxarı əhali arasında savadlılıq səviyyəsi, ibtidai təhsilə nailolma, ibtidai təhsili başavurma səviyyəsi demək olar ki, yüz faizə çatdırılıb.

## LƏYAQƏTLİ VƏ VƏTƏNPƏRVƏR GƏNCLƏR NƏSLİ

Bu gün Azərbaycanın daxili imkanları genişləndikcə, təhsil ocaqlarının yenidən qurulması, təmiri və inşası istiqamətində də davamlı olaraq işlər görülür. Azərbaycanın təhsil sisteminin normativ-hüquqi bazasının yaradılması, təhsilin məzmununun yeniləşdirilməsi və təkmilləşdirilməsi, təhsilin idarə olunmasının demokratikləşdirilməsi, təhsil sahəsində beynəlxalq əlaqələrin genişləndirilməsi istiqamətində çox böyük işlər görülüb. Məhz bunun nəticəsidir ki, bu gün biz təhsilin keyfiyyətinin inkişaf etmiş ölkələrin səviyyəsinə yüksəldilməsi ilə bağlı qürur hissi keçiririk. Bütün bunlar Prezident İlham Əliyevin təhsilə, təhsil işçilərinə göstərdiyi yüksək diqqət və qayğısı, səmərəli fəaliyyət üçün yaratdığı əlverişli şərait və imkanlar sayəsində mümkün olub.

Son illərdə ölkədə təhsil müəssisələrinin inkişafı istiqamətində mühüm addımlar atılmış, müxtəlif şəhər və rayonlarda təhsil müəssisələrinin tikintisi, əsaslı təmiri və bərpası istiqamətində uğurlu işlər görülmüşdür. Məktəb tikintisi ilə bağlı qəbul olunmuş dövlət proqramları bu sahədə sürətli inkişafı təmin edib. Eyni zamanda, regionların sosial-iqtisadi inkişafı, yoxsulluğun azaldılması, məcburi köçkünlərin həyat şəraitinin yaxşılaşdırılması və məşğulluğunun artırılması ilə bağlı qəbul olunan dövlət proqramlarında da məktəb tikintisinə xüsusi önəm verilir. Bakı və Abşeronun sosial-iqtisadi inkişafı ilə bağlı qəbul olunan dövlət proqramlarında yeni məktəblərin tikintisinə diqqət yetirməklə yanaşı, mövcud məktəblərin əsaslı təmirinə də yer ayrılıb.

Azərbaycanda son illər təhsilin inkişafı ilə bağlı həyata keçirilən tədbirlər, dövlət proqramları və islahatlar bu sahəyə dövlətin böyük önəm verdiyini göstərir. Təbii sərvətlərlə zəngin olan Azərbaycan, bu sərvətlərdən səmərəli istifadə etməklə, insan kapitalının yaradılması və daha da inkişaf etdirilməsini başlıca hədəf seçib. Buna görə də, neft gəlirləri Azərbaycanda, həm də təhsilin inkişafına yönəldilib. Şübhəsiz ki, bütün bunlar təhsilin keyfiyyətinə təsirsiz ötüşməyib. Qətiyyətlə deyə bilərik ki, Azərbaycanın gələcəyi üçün layiqli, ləyaqətli və vətənpərvər gənclər yetişir. Respublika və beynəlxalq səviyyədə fənn olimpiadaları keçirilib və iştirak edən şagirdlərin sayı xeyli artıb. Azərbaycan məktəblilərinin beynəlxalq bilik yarışlarında qazandıqları uğurlar bir-birini əvəz edir.

## "TƏHSİL BİZİM GƏLƏCƏYİMİZDİR"

Ardıcıl olaraq, təhsil sahəsində köklü islahatların aparılması məktəblilərin burada şəxsiyyət kimi formalaşmasına təsirini göstərməkdədir. Müasir dövrümüzdə bu islahatların ən mühüm mərhələsi yaşanılır. Təhsilin məzmunu, keyfiyyəti və təlimin təşkilinə verilən tələblərdə ciddi yeniləşmə və müasirləşdirmə prosesləri davam edir. Yeni məktəb binalarının inşası və təhsilin maddi-texniki bazasının gücləndirilməsi istiqamətində görülən işlər müəllimlərin iş, şagirdlərin isə təhsil almaq şəraitini yaxşılaşdırmaq baxımından, çox mühüm addımlardandır. Ölkəmizdə təhsilin inkişafı ilə bağlı həyata keçirilən tədbirlər, deməyə əsas verir ki, Azərbaycanda bu sahədə görülən işlər uğurlu işıqlı gələcəyimizə hesablanıb.

Möhtərəm Prezidentimiz İlham Əliyevin həyata keçirdiyi siyasət Azərbaycanı günü-gündən çiçəklənən ölkəyə çevirir. Hər bir gənc harada çalışmağından asılı olmayaraq, dövlətimizə, dövlətçiliyimizin qorunmasına və milli-mənəvi dəyərlərimizin yaşamasına xidmət edəcəklər. Təbii ki, bu, hər bir vətəndaşın borcu olmalıdır.

Təhsilin inkişafına göstərilən yüksək diqqət Azərbaycanın dünya miqyasında tanıdılmasına və layiqli yerinin təmin olunmasına xidmət edir. Təhsil sistemində əldə olunan yeniliklər Azərbaycan elminin dünyaya inteqrasiya sürətini artırıb. Təhsilin səviyyəsi keyfiyyət baxımından yeni mərhələsini yaşayır. Müasir gənclik ab-havanın içərisində məsuliyyət hissini ön plana çəkir. Azərbaycanın gələcək inkişafına doğru potensialını ortaya qoyur. İctimai-siyasi həyatda qlobal dəyişikliklərin aparılması gənclərin dünyaya inteqrasiya olunmasına gətirib çıxarır. Bu, dövlət tərəfindən Azərbaycan təhsilinə göstərilən diqqət nəticəsində reallaşır. Ölkəmizdə iqtisadi, mədəni və sosial sahələrdə aparılan islahatlar Azərbaycan təhsilinə təsirini göstərməkdədir. Prezident İlham Əliyevin vurğuladığı kimi, "Azərbaycanda təhsil sisteminin təkmilləşməsinə çox böyük diqqət göstəririk. Təhsil bizim gələcəyimizdir". Buna görə də, məsuliyyət hissi ilə cəmiyyətə layiqli vətəndaşlar yetişdirilir.

Möhtərəm Prezidentimiz İlham Əliyevin həyata keçirdiyi siyasət Azərbaycanı günü-gündən çiçəklənən ölkəyə çevirir. Hər bir gənc harada çalışmağından asılı olmayaraq, dövlətimizə, dövlətçiliyimizin qorunmasına və milli-mənəvi dəyərlərimizin yaşamasına xidmət edəcəklər. Təbii ki, bu, hər bir vətəndaşın borcu olmalıdır.

Bugünkü məzunlar Azərbaycanın demokratik bir dövlət kimi daha da inkişaf etdirilməsi üçün çalışmalı, bütün qüvvələrini ölkəmizin uğurlarına yeni uğurlar əlavə etməyə sərf etməlidirlər. Bu günün məzununu həyata hazırlayan güclü dövlətimiz, sağlam düşüncəli ziyalılarımız olduğundan mətin, iradəli və intellektual səviyyəli gənclərimiz müstəqil həyata vəsiqə alırlar.

## TƏHSİLİMİZ QARABAĞDA

Artıq işğaldan azad olunan ərazilərdə tikilən məktəblərdə "Son zəng" çalınır. Qeyd edək ki, Qarabağ torpaqlarının işğalı nəticəsində təkcə Füzuli rayonunda 100-ə qədər orta təhsil və texniki peşə məktəbi ermənilər tərəfindən məhv edilib. Digər qədim yaşayış məskənlərimizdən biri olan Qubadlıda yaşı 100 ildən çox olan ilk dünyəvi məktəb də ermənilər tərəfindən dağıdılıb. Azərbaycanın mədəniyyət beşiyi hesab edilən Şuşa şəhərinin işğalı nəticəsində isə 23 ümumtəhsil məktəbi, 6 məktəbəqədər uşaq müəssisəsi, 7 məktəbəqədər uşaq tərbiyə müəssisəsi, peşə-ixtisas məktəbi, Mədəni-maarif, Kənd təsərrüfatı, M.M.Nəvvab adına Musiqi texnikumları, 2 saylı Bakı Baza Tibb Texnikumunun filialı, həmçinin Azərbaycan Dövlət Pedaqoji Universitetinin, Azərbaycan Dövlət Neft və Sənaye Universitetinin və Azərbaycan Milli Elmlər Akademiyasının Nəsimi adına Ədəbiyyat İnstitutunun filialları dağıdılıb. Şuşa Realnı Məktəbi də ermənilər tərəfindən dağıdılaraq xarabalığa çevrilib. Ağdam şəhərində musiqi, kənd təsərrüfatı, kənd təsərrüfatı mexanikləşdirmə və elektrikləşdirməsi texnikumları, 9 ümumtəhsil və internat məktəbi, iki peşə məktəbi, həmçinin Uşaq Şahmat məktəbi uşaq-gənclər idman məktəbi, ekoloji tərbiyə və təcrübəçilik məktəbi, tibb məktəbləri, texniki yaradıcılıq mərkəzi və gənclər yaradıcılıq mərkəzi fəaliyyət göstərirdi. Dövlətimizin Qarabağda apardığı irimiqyaslı tikinti-quruculuq işləri çərçivəsində məktəblərin də tikilib yenidən istifadəyə verilməsinə start verilib. Bu sahədə ilk müjdə Zəngilanın Ağalı kəndindən oldu. Həmçinin, işğaldan azad olunmuş ərazilərdə 5 ümumi təhsil müəssisəsində 107 müəllim fəaliyyət göstərir, 762 nəfər təhsil alır. Həmin ərazilərdə 13 ümumi təhsil müəssisəsinin təmir-tikintisi davam edir, 2 ümumi təhsil müəssisəsinin tikintisi yekunlaşıb. 6 ümumi təhsil müəssisəsinin təmir-tikintisinə başlanılacaq.

Əlamətdar haldır ki, işğaldan azad olunan ərazilərimizdə Zəngilanın Ağalı kəndində ötən tədris ilində son zəngin sədalarını eşitdik. Bu il başqa ərazilərdən bu səsin sədası ətrafa yayılacaqdır. Məktəbə qədəm basan şagirdlər bu torpaqda - əzəli torpaqlarımızda elmin sirlərinə bələd olub, Vətən torpağının müqəddəsliyini bir daha təhsilverənlərdən əxz ediblər. Laçın rayon 2 nömrəli tam orta məktəbin üçmərtəbəli binasının sahəsi 4550 kvadratmetrdir. Binada 24 yerlik doqquz, 18 yerlik beş və 12 yerlik dörd sinif otağı, bir informatika, bir texnologiya kabineti, 3 laboratoriya, 18 yerlik məktəbəhazırlıq otağı və 24 yerlik hərbi hazırlıq kabineti var.

Zabuxda inşa olunan üçmərtəbəli məktəbdə şagirdlər bir məslək, bir əqidə uğrunda burada təhsil alırlar. Elmli, savadlı və sabahın qurucusu olaraq yetişirlər. Azərbaycan gəncliyinin bir qismi bu məktəbdən boy atır. Zəfər qazanmış Azərbaycanın MƏZUNLARI, yolunuz uğurlu olsun!

**Zümrüd BAYRAMOVA**



# Qohum evliliyi: göz yaşı ilə ötən ömür...

***Ta keçmişdən bu günə kimi həmişə belə olub. Qohum evliliyi öz acı nəticələri ilə ailələrin göz yaşına, kədərinə çevrilib. Gözləri qarşısında qüsurlu, xəstə uşaqların min bir əziyyətlə qarşılaşdığını görməklə ötüb həyatları. Lakin çox təəssüf ki, bütün bunlardan əsla nəticə çıxarılmayıb, uşaqların nə səbəbdən sağlam doğulmadığının fərqinə varan olmayıb. Elə buna görə də qohum evliliyi də, xəstə uşaqların dünyaya gəlməsi də zaman-zaman davam edib.***



## Bir uşağın monoloqu

Mən kimin günahkar olduğunu anlayanda artıq çox gec olacaq. Elə sizin üçün də gec olacaq. Çünki o zaman illərlə xəstəxanalara aparıb-gətirdiyiniz və səhhətində heç bir müsbət nəticəni görmədiyiniz övladınız olan mən yetkinlik yaşımda olacağam. İllərlə mənim sağalmağım yolunda çəkdiyiniz əziyyətin, xərcin hədər olduğunu anlayacaqsınız. Mən uşaqkən sağalacağıma hər gün ümid etdiyiniz halda, yeniyetmə yaşıma çatanda qüsurlu halımdan utanıb, xəcalət çəkəcəksiniz.

Onda mənim işləməyən ayaqlarım, zəif görən gözlərim, yaxud normal olmayan beynim, qanımdakı müxtəlif problemlər "dil" açıb sizə deyəcək: niyə evləndiniz? Sizi evlənməyə kim təhrik etdi? Dünyanın müasirliyindən, səhiyyənin inkişafından, mətbuatın bu qədər maarifləndirməsindən bixəbər olan ata-analarınızmı? Onlar "biz kənara qız verməmişik, bu adət-ənənələrimizi də davam etdirməliyik",- dedilərmi? Əmi-bibi qızının əmi, bibi oğluyla, dayı-xala qızının dayı, xala oğluyla evlənməsi heç məntiqlə düzgün deyil axı? Onlar bir-birinə bacı-qardaş sayılmırmı? Yaxşı, bunları bilməyənlər sizi evləndirərkən siz necə, heç bu izdivaca qarşı çıxdınızmı? Axı ana, ata, siz ikiniz də ali təhsillisiniz. Dünyagörüşü, ali təhsili olmayanlar bu izdivac üçün bir günah daşıyırlarsa, siz iki günah daşıyırsınız. Axı siz qan qohumluğunun mənfi nəticələri barədə bilməmiş olmazdınız. Nə üçün onlara qarşı çıxmadınız? Buna gücünüzmü çatmadı? Nənə-babanıza, valideynlərinizə qarşı çıxa bilmədinizmi? Düzdür, böyüklərə hörmət hər kəsin borcudur. Amma o böyüklər ki, sənə düzgün yol göstərmir, onların sözündən çıxmağınızı Allah sizə günah saymazdı. Elə "Qurani-Kərim" də qan qohumluğuna qarşı çıxıb.

## Məni özünüzə yaraşdırmırsınız...

İndi heç mənim halımdan utanırsınızmı? Məni evdə qoyub qohumlarınızın, qonşularınızın toy ziyafətinə, ad gününə gedərkən nələr çəkdiyimi hiss edirsinizmi? Məni özünüzə yaraşdırmırsınız, hə? Axı məni dünyaya siz gətirmisiniz. Özü də bilərək ki, mən belə doğulacağam: qüsurlu. Sizi evlənməyə təhrik edən babam-nənəm haradadır? Onlar sizin üzünüzə baxa bilirlərmi? Mənim bu halımı hər dəfə görərkən hansı hissləri keçirirlər? Nə üçün məni gəzintiyə çıxaranda



elə utanırlar. Nə üçün mənim gələcəyimdən söz düşəndə gizli-gizli ağlayırlar? Bunu əvvəldən düşünmək olmazdımı?

Nə üçün mən düzgün olmayan addımlarımla yaşıdlarım arasında xəcalət çəkməliydim? Nə üçün mənim qüsurlu gözlərim kiminsə mənə acımasına səbəb olmalıydı? Qanımdakı problemlərin ömrümə hansısa bir andaca son qoyacağını bilirsinizmi? Ölməsəm, qalsam, kimə lazımam? Məgər mən başqaları kimi məktəbdə müəllim dediklərini normal şəkildə anlayırammı? Məgər mənim əlaçı olmaq üçün yetərincə sağlam orqanizmim varmı?

Axı mən həkim olmaq istərdim. Sizin kimilərlə mübarizə aparıb gələcək nəslin sağlamlığının qeydinə qalmaq üçün. Mən müəllim olmaq istərdim. Gənc nəslin təlim-tərbiyəsi ilə məşğul olmaq üçün. Mən də sevib, sevilmək istərdim, ailə qurub, sağlam övladlar sahibi olmaq üçün. Amma bunların hamısı bir arada mümkünmü? Mən həkim, müəllim ola bilsəm belə, sağlam ola bilməyəcəyəm. Ailə qura bilsəm belə, ya övladım olmayacaq, ya da özüm kimi qüsurlu olacaq.

Siz heç övladınızın müvəffəqiyyəti barədə




düşünmüsünüzmü? Onu məktəbə-birinci sinfə göndərərkən fərəh hissi keçirmisinizmi? Arxadan baxıb, boyuna qurban, demisinizmi? Yoxsa illərlə başınız xəstə övladınızın müalicəsinə qarışıb? Onun ali məktəbə daxil olmasını necə, təsəvvürünüzdə canlandırıb, bu sevinci xəyallarda da olsa, yaşamısınızmı? Övlad toyu-qız köçürmə, oğul evləndirmə, gəlin gətirmə barədə necə, xəyal qurmusunuzmu? Bəs qucağınıza nəvə almaq barədə necə, heç fikirləşmisinizmi? Siz də mənim kimi başqalarından, görün, necə seçilirsiniz. Bunların hər biri haqqında fikirləşdiyinizi bilirəm. Bütün bunlar sizin ən ümdə arzularınızdır. Lakin artıq gecdir. Baxın, siz səhv addımınızla nə qədər günahlara səbəbsiniz? Həm özünüzə, həm də mənə günah etmisiniz.

## Kimdir günahkar?..

Qan qohumlarının izdivacına razılıq verib, gəncləri buna təhrik edib, sonradan əzab, xəcalət çəkənlərdir günahkar. Gəlin onları ittiham edək. İttiham edək ki, başqalarına da dərs olsun. Qan qohumluğuna razılıq verənlər mənim kimiləri görüb utansınlar. Mənim kimilərin arzularını ürəklərində qoyduqları üçün xəcalət çəksinlər. Övladlarının qüsurlu övladlarını görəndə günahkar olduqlarını dərk etsinlər. Gözlərini açıb müasir dünyaya yaxşı-yaxşı baxıb, radio-televiziyanın, qəzet və jurnalların qan qohumluğu ilə bağlı "bar-bar bağıran" verilişlərini dinləsinlər, yazılarını oxusunlar. Qan qohumluğuna, yox, desinlər. Bunun gələcək nəsillərin inkişafına, sağlamlığına mənfi təsiri olduğunu dərk etsinlər.

## Deyəsən, "yox" deyirik...

Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin insanların qohum evliliyinə münasibətini öyrənmək, belə nikahların təsirlərinin qiymətləndirməsi, fəsadların müəyyən edilməsi və onların qarşısının alınması istiqamətində tədbirlərin görülməsi məqsədilə 2021-ci ildə keçirdiyi sorğu nəticəsində məlum olub ki, Azərbaycanda qohum evliliyinin 36,4%-i nəsildən-nəslə keçən gərəksiz adətlər, stereotiplərlə bağlıdır.

Bakı, Ağsu, Astara, Beyləqan, Cəbrayıl, Daşkəsən, Gəncə, İmişli, İsmayıllı, Lənkəran, Mingəçevir, Qazax, Qobustan, Salyan, Şamaxı, Şirvan, Tovuz, Xızı, Yevlax, Qəbələ və Ağdamda aparılan sorğuya 1354 respondent qatılıb. Onlardan 67,4%-i qadınlar, 32,6 %-i isə kişilər olub. Sorğu nəticəsində məlum olub ki, qohum evlilikləri arasında dayıoğlu-bibiqızı, bibioğlu-dayıqızı nikahlarının xüsusi çəkisi 37.4%, əmioğlu və əmiqızı evliliyi 22.1%, xalaoğlu və xalaqızı nikahı 23,2%, eləcə də qohum şəxslərin - əmi, bibi, dayı, xala nəvələri arasında olan nikahlar 17,3%-dir. Respondentlərin fikrincə, qohum evliliyinin bir sıra səbəbləri var. Onların 16,4%-i yaşlı nəslin təkidi, gənclərə seçim haqqının verilməməsi, 36,4%-i nəsildən-nəslə keçən gərəksiz adətlər, stereotiplər, 14,3%-i erkən nikah, 16,6%-i gənclərin təcrübəsizliyi, yetəri qədər əhatə dairəsinə sahib olmaması, sosiallaşma problemləri, 8,1%-i ailə quran insanların təhsilsizliyi, cahilliyi, 6,2%-i kifayət qədər məlumatın olmamasını göstəriblər.

Bu günlərdə Milli Məclisin Ailə, qadın və uşaq məsələləri komitəsi tərəfindən qanun layihəsi təqdim olunub. Ailə Məcəlləsində dəyişikliyin edilməsi ilə bağlı qanun layihəsində aralarında nikahın bağlanması yol verilməyən subyektlər dairəsinin genişləndirilməsi ilə bağlı təkliflər yer alıb. Belə ki, Ailə Məcəlləsinin 12-ci maddəsində (Nikahın bağlanmasına mane olan hallar) yaxın qohumlarla yanaşı, qardaşların və bacıların ümumi bioloji baba və nənəsi olan uşaqlar, o cümlədən bioloji qohumluğu olan əmi (dayı) və qardaş (bacı) qızı, həmçinin bibi (xala) və qardaş (bacı) oğlu arasında nikahın bağlanmasına yol verilməyən yeni normanın təsbit edilməsi nəzərdə tutulur.

Beləliklə, deyəsən, axır ki, qohum evliliyinə "yox" deyirik. Bu, gələcəyimizin qədrini bilən hər kəs tərəfindən təqdirəlayiq hal kimi qiymətləndirilir. Ümidvarıq ki, təklif olunan məsələ yaxın gələcəkdə qəbul edilər və bununla da bir yerdə oynayıb böyüyən xala, bibi, dayı, əmi uşaqlarının evliliyinə də, belə izdivaclardan xəstə uşaqların doğulmasına da son qoyular. Bir də göz yaşı ilə ötən ömürlərə...

**Mətanət Məmmədova**

# Misirli analitik: “Əliyev heç vaxt hansısa ölkəyə boş yerə səfər etmir”





**Misirli analitik, beynəlxalq biznes üzrə ekspert Taimur Dvidar “Caliber” analitik mərkəzinə müsahibəsində maraqlı məqamlara toxunub. Müsahibəni oxucularımıza təqdim edirik·**

**- Azərbaycan Prezidenti İlham Əliyev Misirə rəsmi səfərə gəlib. İki ölkə hansı sahədə əməkdaşlıq edə bilər?**

-Hesab edirəm ki, Azərbaycan Prezidentinin Misirə səfərinin də öz mühüm ilkin şərtləri var. Bu gün Azərbaycan dünyada siyasi və iqtisadi təsirini sürətlə artırır və mənə elə gəlir ki, yaxın gələcəkdə ölkəniz nəinki Cənubi Qafqaz regionunda, həm də Yaxın Şərq regionunda çox mühüm iqtisadi oyunçuya çevriləcək. İlham Əliyevin Qahirəyə səfəri də şübhəsiz ki, bununla bağlıdır.

Gördüyüm ikinci mühüm səbəb Azərbaycan investisiyalarının Misirə cəlb edilməsidir. Fakt budur ki, dünyada tamamilə bütün qabaqcıl texnologiyalar Misirdə tələb olunur və buna xüsusi diqqət yetirilir. İndi isə Misirdə həyata keçirilən layihələr bunun əyani təsdiqidir: bunlar dəmir yolu və aviasiya infrastrukturu və digər sahələr üzrə layihələrdir. Yalnız dəmir yolu mövzusundan danışırıqsa, bu həm adi dəmir yolları, həm də yüksək sürətli və ya monorelsli yollardır. Hazırda Misirin müxtəlif meqalayihələrinə sözün əsl mənasında milyardlarla dollar sərmayə qoyan digər iri investorlarla birlikdə Azərbaycan burada ciddi oyunçu ola bilər.

İkinci ilə səsləşən üçüncü mühüm məqam: Misir əsl neft və qaz xəzinəsidir və burada daima yeni enerji yataqları tapılır və bu mənada Azərbaycan bu sahədə Misir üçün axtarılan ekspert kimi çıxış edə bilər və onları inkişaf etdirə bilər.

Ümumiyyətlə, demək yerinə düşər ki, bu gün Bakı ilə Qahirə arasında münasibətlərin qurulması çox böyük müsbət addımdır. Ümumiyyətlə, Misirin çoxlu özünün inkişaf etmiş texnologiyaları, yüngül və orta sənayenin yüksək inkişaf etmiş sektorları var, yeri gəlmişkən, dünya bazarında tez-tez türk şirkətləri ilə rəqabət aparır. Bütün bunlar Bakı üçün maraqlı ola bilər.

Mübaliğəsiz bu səfəri tarixi adlandırmaq olar, çünki hələ orta əsrlərdə Bakı, İstanbul və Misir şəhərləri arasında mühüm ticarət və mədəni əlaqələr mövcud idi və karvanlar şəhərdən-şəhərə uzunmüddətli səyahətlər edirdilər. Və ümid edirəm ki, səfər qarşılıqlı sərmayələr üzrə dialoqla yekunlaşmayacaq, Misir və Azərbaycan arasında böyük mədəni qarşılıqlı əlaqənin başlanğıcı olacaq.

**- Azərbaycan Misirə investisiyalardan və enerji sənayesindəki təcrübəsindən başqa nə təklif edə bilər?**

- Beynəlxalq biznes sahəsində mütəxəssis kimi qeyd edə bilərəm ki, Azərbaycan, mənim fikrimcə, indi istənilən regionda, sözün əsl mənasında, bizim gözümüzün önündə ölkə üçün çox perspektivli tərəfdaşdır, öz şirkətləri, insanı ilə bütöv bir təbəqə formalaşır; beynəlxalq bazarlara böyük kommersiya, ticarət, istehsal və maliyyə ekspansiyasının həyata keçirilməsi üçün resurslar, yaradıcı ideyalar. Mən Azərbaycan biznesi üçün ciddi uğurlar proqnozlaşdırıram və mən özüm də bu istiqamətdə sizin şirkətlərlə əməkdaşlığa hazıram.

Təbii ki, hiss olunur ki, bugünkü Azərbaycanın potensialı öz regionunun coğrafiyasından qat-qat genişdir, deyək ki, dünyanı heyrətləndirəcək bir şey var; Bunlara yüngül və kimya sənayesinin brendləri, iqtisadiyyatın bütün sahələrində- qidadan geyim istehsalına qədər innovasiyalar daxildir. Bu sahələrdən olan bir sıra Azərbaycan şirkətləri artıq daxili bazarı fəth edib, postsovet məkanında, xüsusən də Rusiya bazarlarında özlərini çox yaxşı sübut ediblər, lakin hiss olunur ki, onlara burada da darısqaldır, daha böyük potensiala malikdirlər, onlar böyük beynəlxalq bazarlara çıxmağa çalışırlar, lakin burada müəyyən çətinliklər var. İstər ərəb, istər ingilis, istərsə də başqa bazarlarda məhsulunuzu tanıtmaq üçün təcrübə lazımdır, bu həmişə kifayət etmir, çünki burada Azərbaycan şirkətlərinin öz fərdi yanaşmaları ilə eyni savadlı marketinqdən istifadə etməsi çox vacibdir. Beləliklə, bu şirkətlər üçün Misir bazarı çox perspektivlidir.

Ümumiyyətlə, bütün əməkdaşlıq üçün çox mühüm bir faktı qeyd etmək yerinə düşər- Azərbaycan üçün Misir həm ərəb dövlətləri, həm Şimali Afrika dövlətləri, həm də ümumilikdə bütün Afrika bazarına daxil olmaq üçün real pəncərədir. Həm regionun bütün ölkələrinin marağını cəlb etmək üçün uğurlu, bariz nümunə baxımından, həm də logistikanın özü baxımından. Xatırladım ki, Misir öz iqtisadi statusunda bu gün qlobal, azad ticarət və azad iqtisadi zonaların yaradılması baxımından Yaxın Şərqdə Sinqapur təcrübəsini kifayət qədər uğurla kopyalayır. Fakt budur ki, inkişaf illəri ərzində Misir Aİ, Hindistan və Afrika da daxil olmaqla, dünyanın 80-ə yaxın ölkəsi ilə pulsuz rüsumsuz ticarət haqqında çoxlu müqavilələr bağlayıb. Kobud şəkildə desək, azad iqtisadi zonanın olduğu Süveyş kanalı zonasında müəssisənizi yaradanda məhsullarınız Aİ bazarlarına və digər iri beynəlxalq bazarlara rüsumsuz çıxır. Üstəlik, bütün bunlar Avropaya və bizim regiona Sinqapurdan qat-qat yaxındır və müvafiq olaraq, bütün bunlar iqtisadi baxımdan xeyli sərfəlidir.

**- Səfərin məhsuldarlığına sırf siyasi nöqteyi-nəzərdən baxsaq necə olar?**

- Bu rakursdan baxsanız, Bakı ilə Qahirə arasında təmas çox düzgün, doğru zamanda baş verir və təbii ki, bu, Yaxın Şərqdəki vəziyyət, onun münaqişə komponenti, cənab Əliyevin Yaxın Şərqlə şəxsi əlaqələri ilə bağlıdır. Hər kəsin öz prezidentilə öyünə bilmədiyi Şərq ölkələri, o cümlədən Bakı ilə Moskva arasında sıx əməkdaşlıq düsturu Qahirə üçün maraqlı ola bilər.

Təbii ki, Bakı ilə Ankaranın indiki əlaqələri çox önəmlidir, yuxarıda qeyd etdiyim kimi, onlar uzun müddət bir yerdə olublar və bir-biri ilə fəal əməkdaşlıq ediblər. Digər məsələ odur ki, biz uzun əsrlərdən sonra müxtəlif vektorlara səpələnmişik. İndi bu münasibətlər bərpa olunur, biz yenidən yaxınlaşırıq, lakin yeni zaman kontekstində bu amil tamam başqa məna kəsb edir. Ona görə də hesab edirəm ki, səfərin son dərəcə mühüm geosiyasi əhəmiyyəti var, bir sıra yeni siyasi formullar və konfiqurasiyalar yaradır. Qlobal siyasi qeyri-sabitlik şəraitində, xüsusilə Şərqlə Qərb arasında mövcud münasibətlər fonunda yaranan ittifaqlar çox vacibdir.

**- Əvvəlki sual kontekstində, regiondakı münaqişələr və təhlükələrdən artıq danışmağa başladığımıza görə, ölkələrimiz arasında hərbi-texniki əməkdaşlıq mümkündürmü?**

- Məncə, olduqca mümkündür. Misirin öz silahlarını istehsal etmək və satmaq təcrübəsi var. Bu, əsas regional oyunçudur, Misir yaxşı sənaye hərbi bazasına, həm şərq, həm də qərb bloklarından tamamilə fərqli silah sistemlərinin inteqrasiyasında zəngin təcrübəyə malikdir. Azərbaycanın müdafiə qabiliyyətinin gücləndirilməsi kontekstində belə təcrübə Bakı üçün maraqlı ola bilər.

Səfərin potensialından danışarkən bir daha qeyd etmək istərdim ki, Azərbaycan Misir üçün çox maraqlı və praqmatik tərəfdaşdır və Azərbaycan Prezidenti heç vaxt müəyyən ölkələrə bu cür, rəsmiyyət və şou üçün səfər etmir, ona görə də mən Bakı və Qahirənin mövqelərinin yaxınlaşmasından böyük qayıdış, çoxlu maraqlı xəbərlər gözləyirəm.

***Tərcümə - Elçin Bayramlı***

---

# “COP29 Azərbaycanda indiyə kimi keçirilən ən böyük tədbirdir”




“COP29 tədbiri 29-cu tədbirin keçiriləcəyini göstərir”. Bu sözləri SİA-ya açıqlamasında politoloq Elşad Həsənov deyib.O bildirib ki, bu tədbir BMT-nin iqlim dəyişikliyi konfransıdır, COP adlanır: ”COP-un əsas məqsədi Paris sazişinin tələbi olaraq dünyada karbon ($CO_2$) qazının miqdarının sənayeləşmədən əvvəlki dövrdə olduğu kimi 1,5 dərəcə selsi ilə məhdudlaşdırmaq üzrə irəliləyişə nail olmaqdır. Yəni indiki qazanxanalardan karbon qazının yayılması, atmosferə qalxması ciddi fəsadlar törədir. Ona görə də son dövrlər iqlimdə çox böyük dəyişikliklər var, həddindən artıq istilər keçir. Atmosfer çirklənir. Buna qarşı da çox böyük mübarizə aparılır. Həmin iqlim dəyişikliyi ilə bağlı məsələ, COP məsələsi budur.BMT-nin bu sazişini BMT-nin üzvü olan 199 ölkə imzalayıb. Bu ölkələr Çərçivə Konvensiyası imzalayıblar. Tədbirdə həmin ölkələrin nümayəndələri iştirak edə bilərlər. Bizim bu tədbirə ölkənin 199 ölkəsindən 70-80 min nümayəndə heyətinin gəlməsi gözlənilir. Bu, Azərbaycanda indiyə kimi keçirilən ən böyük tədbirdir. Çünki Azərbaycan Avropa oyunlarına, digər böyük tədbirlərə ev sahibliyi edib. Ancaq bu Azərbaycan tarixində ilk ən böyük və ən geniş tədbir olacaq”.”Birincisi, Azərbaycan artıq dünyada tanınan böyük ölkə olmasa da, öz iqtisadiyyatı, siyasətinə, son illər apardığı doğru siyasətinə görə dünyada tanınan ölkəyə çevrilib. Azərbaycan bir çox tədbirlərə ev sahibliyi edir. Bu, Azərbaycan imicinə çox böyük müsbət təsir göstərir. Xarici qonaqlar Azərbaycanı yaxından görür, tanıyır. Bu da Azərbaycanın təbliğatı üçün çox vacib önəm daşıyır.

***MÜNASİBƏT***

Azərbaycanın bu tədbiri keçirməsində əsas maliyyə dəstəyi özü edir. Digər sponsorlar da, qeyri-hökumət təşkilatları da bu sahədə iştirak edirlər. O cümlədən də Birləşmiş Millətlər Təşkilatı da maliyyə yardımı göstərir.COP29 bizə nə qazandırır sualı versək, qazanmaq deyəndə birbaşa qazanc yoxdur. Ancaq həmin nümayəndələr gəlib burada iştirak edirlər. Noyabrın 11-dən 22-sinə qədər davam edən tədbirdə bu qədər nümayəndələr Azərbaycanda, Bakıda olacaqlar. Gecə-gündüz qalacaqlar, ekskursiyaya gedəcəklər. Yəni Azərbaycan həqiqətlərini görəcəklər və Azərbaycanın daha da tanınmasına yardımçı olacaqlar. Bizim qazancımız bunlardır. Biz bu tədbirdən pul qazanmaq məqsədi güdmürük. Eyni zamanda tarixə düşür ki, Azərbaycan belə böyük bir tədbiri keçirir.Bu il, 2024-cü il yaşıl dünya naminə həmrəylik ili elan edilib. Artıq azad olunmuş Qarabağ ərazisində ancaq yaşıl enerjidən istifadə olunması haqqında ciddi tədbirlər görülür. Yəni qazdan, neft yanacağından buxarlanan qazlar atmosferə çökür, bu da əhalinin zəhərlənməsinə, havanın çirklənməsinə səbəb olur. Ona görə də bu ili yaşıl dünya naminə həmrəylik ili elan etmişik. Bu sahədə də çox ciddi tədbirlər görülür. Ona görə də hesab edirəm ki, bu tədbiri Azərbaycan digər tədbirlər kimi yüksək səviyyədə keçirəcək. Azərbaycan ictimaiyyəti bu tədbirin keçirilməsini dəstəkləyir, alqışlayır. Hesab edirəm ki, bu tədbirdən sonra da Azərbaycanın müsbət imici daha da yüksələcək” - deyə o, əlavə edib.

***Söylü Ağazadə***

# “Qurtuluş Günü: Milli Birlik və Qürur Günü” mövzusunda konfrans keçirilib





*13 iyun 2024-cü il tarixdə Pirallahı rayonunda Pirallahı RİH və Yeni Azərbaycan Partiyası Pirallahı rayon təşkilatının birgə təşəbbüsü ilə 15 iyun-Milli Qurtuluş Günü münasibətilə “Qurtuluş Günü: Milli Birlik və Qürur Günü” mövzusunda konfrans keçirilib. SİA xəbər verir ki, tədbirdə RİH başçısı Vasif İmanov, YAP Pirallahı rayon təşkilatının sədri Emil Abasov, SƏS Media qrupunun rəhbəri Bəhruz Quliyev, tarix üzrə fəlsəfə doktoru Cəbi Bəhramov, RİH başçısı Aparatının məsul əməkdaşları, rayon ərazisində fəaliyyət göstərən idarə, müəssisə, təşkilat rəhbərləri və kollektiv üzvləri, Qeyri-hökumət təşkilatlarının nümayəndələri, Vətən müharibəsi iştirakçıları, şəhid ailələri, fəal gənclər iştirak etdilər. Tədbir Rayon İcra Hakimiyyətinin foyesində Ulu öndər Heydər Əliyevin büstü önünə gül qoyma mərasimi ilə başlayıb.*

İlk öncə dövlət himnimiz səsləndirilib, Ümummilli Lider Heydər Əliyevin və şəhidlərimizin xatirəsi bir dəqiqəlik sükutla yad edilib. 15 iyun-Milli Qurtuluş gününə həsr olunmuş video-çarxa baxılıb.

Tədbiri giriş sözü ilə açan YAP Pirallahı rayon təşkilatının sədri Emil Abasov çıxış edərək bildirib ki Azərbaycan xalqının taleyində böyük əhəmiyyət daşıyan elə günlər var ki, həmin günlərdə onun gələcək həyatını müəyyən edən mühüm başlanğıcların əsası qoyulub. Belə günlərdən ən önəmlisi tariximizə qızıl hərflərlə yazılmış 15 İyun–Milli Qurtuluş Günüdür. Milli Qurtuluş Günü Azərbaycan xalqı üçün sadəcə təqvim bayramı deyil, böyük ictimai, siyasi və tarixi əhəmiyyətə malik bir gündür. İyunun 15-də Azərbaycan Ali Sovetinin sədri seçilən Ulu Öndər böyük risklərə baxmayaraq xalqın qurtuluşu missiyasını cəsarətlə öz üzərinə götürdü. Bu gün milli qurtuluş ideologiyasının təntənəsi müstəqil respublikamızın davamlı inkişafında özünü büruzə verir, dünyada Azərbaycanın nüfuzu daha da artır. Ulu Öndər Heydər Əliyevin hakimiyyətə qayıdışından sonra ölkədə baş vermiş sosial-iqtisadi və siyasi inkişaf dövlətimizin möhkəmlənməsində, sivil dünyaya sıx inteqrasiya prosesinə qoşulmasında və xalqımızın strateji mənafelərini təmin edən modern cəmiyyətin qurulmasında həlledici rol oynadı.

Pirallahı Rayon İcra Hakimiyyəti başçısı Aparatının İctimai-siyasi və humanitar məsələlər şöbəsinin müdir müavini Arzu Əliyevaya çıxışında bildirib ki, Ulu öndər Heydər Əliyev ikinci dəfə hakimiyyətə qayıtdıqdan sonra ölkəyə rəhbərlik etdiyi müddətdə Azərbaycanı çətin vəziyyətdən çıxarmaq üçün zəruri addımlar atmışdır. Azərbaycan-Ermənistan arasında atəşkəsin imzalanmasına nail olunmuş, ölkə iqtisadiyyatının inkişafına təkan verən ən böyük strateji əhəmiyyətli “Əsrin müqaviləsi” imzalanmış, dövlət quruculuğu istiqamətində yeni Konstitutsiya qəbul olunmuş, müstəqillik dövründə Milli Məclisə seçkilər keçirilmiş, yerli özünüidarəetmə orqanlarının formalaşdırılması istiqamətində bələdiyyə seçkiləri keçirilmiş, Azərbaycan Respublikası Avropa Şurasına qəbul edilmiş, Dünya Azərbaycanlılarının I Qurultayı təşkil olunmuşdur. Bu gün biz qurtuluşun əhəmiyyətini dərk edərək, Azərbaycanın müstəqilliyini daha da möhkəmləndirmək və ölkəmizin inkişafına öz töhfəmizi vermək üçün birlikdə çalışmalıyıq.









SƏS Media qrupunun rəhbəri Bəhruz Quliyev bildirib ki, bu gün milli qurtuluş ideologiyasının təntənəsi müstəqil respublikamızın davamlı inkişafında özünü büruzə verir, dünyada Azərbaycanın nüfuzu daha da artır. Ulu Öndər Heydər Əliyevin hakimiyyətə qayıdışından sonra ölkədə baş vermiş sosial-iqtisadi və siyasi inkişaf dövlətimizin möhkəmlənməsində, sivil dünyaya sıx inteqrasiya prosesinə qoşulmasında və xalqımızın strateji mənafelərini təmin edən modern cəmiyyətin qurulmasında həlledici rol oynadı. Bütün varlığı ilə vətəninə bağlı olan dünya şöhrətli dövlət xadimi Heydər Əliyev çağdaş tariximizdə əbədiləşmiş, respublikamıza rəhbərliyinin bütün dövrlərində xalq qarşısında misilsiz xidmətlər, xilaskarıq missiyası, zəngin dövlətçilik nümunəsi göstərmişdir. Azərbaycana rəhbərlik etdiyi vaxtlarda xalqımızın rifahını düşünərək bu təməl yaratdı. Onun uzaqgörən siyasəti, ölkənin müstəqilliyini möhkəmləndirərək, Azərbaycanı regionda güclü və sabit bir dövlətə çevirdi.

Sonda Pirallahı Rayon İcra Hakimiyyətinin başçısı Vasif İmanov bu əlamətdar gün münasibətilə tədbir iştirakçılarını təbrik edərək bildirib ki, bu gün mühüm nailiyyətin əldə edilməsində Ümummilli Lider Heydər Əliyevin fədakar xidmətlərinin ali amal uğrunda yorulmaz fəaliyyət göstərərək, qəlblərdə daim sevgi, xatirələrdə əbədiyaşarlıq qazanmışdır.

Tarix üzrə fəlsəfə doktoru Cəbi Bəhramov çıxışında vurğuladı ki, Azərbaycan xalqının taleyində əlamətdar yer tutan bu gün, ölkəmizin suverenliyinin qorunması və müstəqilliyimizin təmin olunmasında müstəsna əhəmiyyət kəsb edir. 1993-cü ilin həmin günündə xalqımızın Ümummilli Lideri Heydər Əliyev Azərbaycan Ali Sovetinin sədri seçilərək ölkənin rəhbərliyinə gəldi və Azərbaycanı vətəndaş müharibəsi və parçalanma təhlükəsindən xilas etdi. Beləliklə, Azərbaycan üçün tarixi dönüş nöqtəsi başladı. O vaxt ölkə ciddi siyasi və iqtisadi böhran içində idi, daxili çəkişmələr və parçalanma təhlükəsi hər an baş verə bilərdi. Belə bir çətin zamanda Heydər Əliyevin uzaqgörən və qətiyyətli liderliyi sayəsində Azərbaycan bu təhlükələrdən xilas oldu və stabillik yoluna qədəm qoydu. Ümumilikdə, Ulu Öndər Heydər Əliyevin fəaliyyəti, müasir Azərbaycanın inkişafı üçün mühüm bir müstəsna əhəmiyyəti vardır. Xalqımız artıq neçə ildir ki, bu bayramı yüksək əhvali-ruhiyyə, milli qürur hissi, Qələbə ovqatı ilə qeyd edir. Qurucusu Ümummilli Lider Heydər Əliyev olan şanlı Azərbaycan Ordusu Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə Vətən müharibəsində parlaq Qələbə qazanaraq işğal altındakı torpaqlarımızı azad etdi, ölkəmizin ərazi bütövlüyü təmin olundu. Ulu Öndərin ən böyük arzusu Azərbaycanı bütöv görmək idi. Ulu Öndərin arzuları 27 ildən sonra reallaşdı, cənab İlham Əliyev ata vəsiyyətini yerinə yetirdi. Noyabr ayında COP-29 kimi nəhəng və möhtəşəm tədbirin ölkəmizdə keçirilməsi Azərbaycanın beynəlxalq aləmdə qazandığı böyük diplomatik və siyasi qüdrətin təntənəsidir. Müasir müstəqil Azərbaycan Ulu Öndər Heydər Əliyevin davamçısı olan cənab İlham Əliyevin rəhbərliyi ilə uğurla inkişaf edir, ardıcıl nailiyyətlər qazanaraq yeni zirvələr fəth edir. Tədbirdə rayonun ictimai həyatında fərqlənən bir qrup şəxs Fəxri Fərmanlarla təltif olunub.

# Ermənistanın KTMT-dən çıxışı və səbəbləri



***Bu günlərdə Ermənistanın baş naziri Nikol Paşinyan, Rusiyanın rəhbərlik etdiyi altı post-sovet dövlətindən ibarət Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatından çıxmaq niyyətində olduğunu açıqlayıb. Nikol Paşinyanın Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatından çıxmaq niyyəti barədə açıqlaması regionda geniş əks-səda doğurub. Belə ki, Baş nazir çərşənbə günü parlamentdə bəyan edib ki, onun hökuməti Rusiya, Belarus, Qazaxıstan, Qırğızıstan və Tacikistanın daxil olduğu təhlükəsizlik alyansından çıxacaq.***

Qeyd edək ki, Rusiya ilə getdikcə daha çox fikir ayrılığına düşən Ermənistan bundan əvvəl alyansdakı iştirakını dondurmuş, birgə hərbi təlimlərə qoşulmayaraq KTMT sammitlərinə qatılmamışdı. Beləliklə Ermənistanın KTMT-dən tamamilə çıxacağını ilk dəfə bəyan edən Paşinyan dünən parlamentdə keçirdiyi iclasda təfərrüatları danışıb.

Ermənistanın uzun müddət müttəfiqi olan Rusiya ilə münasibətləri Azərbaycanın sentyabr ayında Qarabağ bölgəsində keçirdiyi hərbi əməliyyatlardan sonra pisləşməyə başlayıb. Belə ki, bölgədəki 30 illik erməni separatçı hakimiyyətinə son qoyulmasından sonra ölkə daxilində də Rusiyaya qarşı etirazlar yaranmışdı. Ermənistan rəsmiləri 2020-ci ildəki toqquşmalardan sonra Dağlıq Qarabağa yerləşdirilən Rusiya sülhməramlılarını Azərbaycanın hücumunu dayandıra bilməməkdə də günahlandırmışdı. Ermənistanda hərbi bazası olan Moskva isə bu ittihamları rədd edərək, əsgərlərinin müdaxilə etmək səlahiyyətinin olmadığını bildirmişdi.



Rusiya rəsmiləri isə məsələ ilə bağlı hələlik heç bir açıqlama verməyib. Paşinyanın Ermənistanın Qərblə əlaqələrini dərinləşdirmək və ölkəsini Moskvanın dominantlıq etdiyi ittifaqlardan uzaqlaşdırmaq cəhdlərinə qıcıqlanan Rusiya artıq Ermənistandakı təsir dairələrinin zəiflədiyini qəbul edir. Eyni zamanda Ermənistanın, Putini Rusiyanın Ukraynadakı hərəkətləri ilə əlaqəli hərbi cinayətlərdə ittiham edən Beynəlxalq Cinayət Məhkəməsinə qoşulmaq qərarı Rusiyanı xüsusilə narahat edib. Hazırda üçüncü ildir ki, Ukraynada davam edən münaqişə ilə məşğul olan Kreml, Ermənistanın qərbə doğru yönəlməsindən narahatlığını açıq şəkildə ifadə edib.



Maraqlısı budur ki, Paşinyanın KTMT-dən çıxmaq addımı, dörd sərhəd kəndi Azərbaycana təhvil vermək qərarına görə istefa verməsini tələb edən kütləvi etiraz dalğası ilə üzləşdiyi vaxta təsadüf edir. Görünən odur ki, Ermənistan tərəfi daxili çaxnaşmalarda Rusiyanı təqsirkar görür. Digər bir ehtimala görə isə KTMT-dən çıxmaq işlərini sürətləndirmənin səbəbi diqqəti və çaxnaşmalara görə bütün məsuliyyəti Rusiyanın üzərinə yükləməkdir. Digər tərəfdən Ermənistan daxilindəki siyasi qeyri-müəyyənliklər və sosial gərginlik bizə bu qərarın arxasında duran dinamikanı anlamağa yön versə də kifayət qədər dəqiq fakt sayılmır. Belə ki, Paşinyanın bu addımı ölkədəki siyasi müxalifətin və ictimaiyyətin Rusiyaya qarşı inamsızlığını əks etdirsə də Rusiya ilə gərgin münasibətlər və sosial təzyiqlər arasında əlaqə aydın deyil və daha dərin təhlil tələb edir. Çünki iki ölkə arasındaki münasibətlər vahid komponentlər arasında deyil, kifayət qədər fərqli perspektivlər arasındadır.



TƏHLİL

***Zərdüşt Quluzadə***

# "Türk dünyası artıq özünün haqlarını müdafiə edən güc mərkəzinə çevrilib"



*MÜNASİBƏT*

"Bu il fevralın 14-də özünün andiçmə mərasimində möhtərəm Prezident yeni dövrdə Azərbaycan Respublikasının prioritetlərini açıqlamış, o cümlədən xarici siyasət kursunun istiqamətləri barədə yol xəritəsini müəyyən etmişdi. Dövlət başçısı yeni periodda əsas xarici siyasət istiqamətinin Türk dünyası olduğunu bəyan etmiş və bildirmişdi ki, "Türk Dövlətləri Təşkilatı bizim üçün əsas beynəlxalq təşkilatdır, çünki bu, bizim ailəmizdir. Bizim başqa ailəmiz yoxdur. Bizim ailəmiz Türk dünyasıdır". Sirr deyil ki, bu coğrafiyada Türk dünyası amili - Turan mövzusu müəyyən dövrlərdə istismar edilib, xüsusən AXC-Müsavat hakimiyyəti illərində bu istismar dövlət səviyyəsində həyata keçirilib və ciddi fəsadlara yol açıb. Reallıqda isə müstəqilliyin ilk illərində nəinki Türk dünyası ilə əlaqələr qurula bilməyib, əksinə Türkiyə, Türkmənistan, Özbəkistan kimi dövlətlərlə münasibətlər qeyri-sağlam istiqamətlərə və xoşagəlməz nəticələrə aparıb çıxarmışdı". Bu sözləri SİA-ya açıqlamasında Milli Məclisin deputatı Bəhruz Məhərrəmov deyib. Onun sözlərinə görə, yalnız Ulu Öndərin hakimiyyətə gəlişi ilə Türk dünyası ilə münasibətlər müasir mənada qurulmağa və bərqərar olunmağa başladı: "Cənab İlham Əliyev isə Türk dünyasının vahid qüvvə kimi bəşəri dəyərlər uğrunda mübarizə apara biləcək vahid mexanizmə çevrilməsi istiqamətində ciddi təməl formalaşdırdı. İlk dəfə olaraq məhz cənab İlham Əliyevin təşəbbüsü ilə Türk Dövlətləri Təşkilatı COVID-19-la mübarizədə səyləri birləşdirən təsisata çevrildi. Xüsusən Vətən müharibəsi və sonrakı periodlarda başda Türkiyə olmaqla, Türk dünyasının vahid bir yumruq kimi Azərbaycanın ətrafında birləşdiyinə şahidlik etdik. Ayrı-ayrı türk dövlətlərinin liderləri ilə sağlam və qarşılıqlı etimada əsaslanan münasibətləri formalaşdırmaqla cənab İlham Əliyev ölkələr arasında rəsmi təmasların artırılmasına, əlaqələrin dərinləşməsinə tarixin heç bir dövründə olmadığı güclənməsinə nail oldu. Bu gün səmimiyyətlə deyə bilərik ki, Türk dünyası ümummaraq kəsb edən məsələlərdə vahid rakursdan çıxış edir".

Millət vəkili sözlərinə davam edərək bildirib ki, TÜRKPA-nın 13-cü plenar iclasında qaldırılan məsələlər, səslənən qəti mövqelər də məhz bu prosesin davamı, daha böyük Türk birliyinə doğru addımların real inikasıdır: "İyunun 6-da möhtərəm Prezidentin TÜRKPA-nın nümayəndə heyətini qəbul etməsi zamanı verilən bəyanatlar da göstərir ki, Türk dünyası artıq özünün haqlarını müdafiə edən, əks həmlə ilə mənafelərini lazımi səviyyədə qoruya bilən, aydın mövqeyə malik güc mərkəzinə çevrilib. Cənab İlham Əliyevin də bəyan etdiyi kimi "biz burada yaşayırıq, heç kimin, necə deyərlər, sözü ilə oturub-durmuruq, heç kimə imkan vermirik ki, gəlsin buraya bizim işimizə müdaxilə etsin. Mənə dəymə, mən də sənə dəyməram. Sən mənə dəyəcəksənsə, onda gözlə, sənin də başın ağrıyacaq".

***Ləman Sərraf***

# Türk dünyası: yeni güc, yeni qüvvə!

***TÜRKPA-nın nümayəndə heyətini qəbul edən Prezident İlham Əliyev hədəfləri, çağırışları da diqqətə çatdırdı: «Türk dünyası güclənsin. Türk dünyasının istəyi, niyyəti işbirliyidir, əməkdaşlıqdır, dostluqdur. Türk birliyi heç kim üçün təhdid mənbəyi deyil heç vaxt olmayacaq!»***

Başlıca məqsədi türk dövlətlərinin parlamentlərarası əməkdaşlığının möhkəmləndirilməsi, parlament diplomatiyasının genişləndirilməsi olan, Türk Dövlətləri Təşkilatına (TDT) üzv ölkələr arasındakı siyasi dialoqların milli maraqlar naminə möhkəmləndirilməsinə xidmət edən Türk Dövlətləri Parlament Assambleyası (TÜRKPA) region ölkələri arasında qarşılıqlı, bərabər hüquqlu əməkdaşlığın inkişafına da töhfələr verir. Ortaq tarixə, adət-ənənələrə malik türk dövlətləri arasında birlik və həmrəyliyin möhkəmlənməsi, siyasi, sosial-iqtisadi, mədəni, humanitar, hüquqi və digər sahələrdə əlaqələrin inkişafı üçün maraqlı təkliflərin müzakirə platforması adlandırılan TÜRKPA dünya birliyini narahat edən, həllini gözləyən qlobal məsələlərin müzakirəsində də nüfuz qazanmış təşkilat kimi fəaliyyət göstərir, varlığını subut edir.

Türk dövlətlərinin birlik və həmrəyliyinin möhkəmlənməsi üçün öndərliyini xidmətləri ilə əbədiləşdirən Ulu Öndər Heydər Əliyevin əsasını qoyduğu siyasəti uğurla, müasir dövrün tələblərinə uyğun davam etdirən Prezident İlham Əliyevin xarici siyasətində TDT-yə üzv ölkələr arasında münasibətlərin gücləndirilməsi əsas prioritet kimi aktuallığını qoruyur. Bu birliyin sarsılmazlığı üçün Azərbaycanın yürütdüyü siyasətin uğurlarından söz açın Prezident İlham Əliyevin «Bu, bizim üçün əsas beynəlxalq təşkilatdır, çünki bu, bizim ailəmizdir. Bizim başqa ailəmiz yoxdur. Bizim ailəmiz Türk dünyasıdır"» sözləri bu TDT-nin məqsəd və məramının «tərcümeyi-halıdır.»

Hazırda Türk dünyasının sarsılmaz birliyi reallığa çevrilməklə, qlobal məsələlərin həllində iştirakı, məsələlərə təsiretmə imkanları təsdiqlənmiş və təkzibedilməz faktdır. Azərbaycan- Türkiyə strateji tərəfdaşlığı bu birliyə inteqrasiya prosesinin sadəcə iştirakçısı deyil, həm də inanılmış aparıcı qüvvədir. İki qardaş ölkənin birgə səyi ilə güc mərkəzinə çevrilən bu birlik sayəsində TDT regionda və dünyada cərəyan edən qlobal siyasi-iqtisadi proseslərə türk xalqlarının ortaq maraqları baxımından münasibət bildirir, İslam həmrəyliyinin möhkəmlənməsinə töhfə verir, antitürk təxribatlara, dini radikalizmə qarşı mübarizə aparır.

Türk dövlətlərinin müxtəlif təşkilatlar çərçivəsində əməkdaşlığının genişlənməsi İslam həmrəyliyini də gücləndirir. Bu birliyin gücləndirilməsində xüsusi rolu olan TÜRKPA-ya sədrliyi müddətində fəallığı ilə diqqət çəkən Azərbaycanın bölgədə yaratdığı yeniliklər, dünya siyasətinə təsiretmə imkanları yüksək qiymətləndirilir.

İyunun 6-da Türk Dövlətləri Parlament Assambleyasının «Türk dünyası üçün yaşıl üfüqlər: yaşıl gündəliyə nail olunmasında parlamentlərin rolu» mövzusunda 13-cü plenar iclasında da mühüm beynəlxalq əhəmiyyətli məsələlər müzakirə olunmuş, təkliflər irəli sürülmüşdür. TÜRKPA-nın Baş katibi Mehmet Süreyya Eri, Türkiyə Böyük Millət Məclisinin sədri Numan Kurtulmuşu, Qazaxıstan Parlamenti Məclisinin sədri Yerlan Koşanovu, Qırğızıstan Joqorku Keneşinin sədri Nurlanbek Şakiyevi, Özbəkistan Ali Məclisi Senatının sədri Tənzilə Narbayevanı, Şimali Kipr Türk Cümhuriyyəti Məclisinin sədri Zorlu Töreni və Macarıstan Milli Assambleyasının sədrinin müavini Marta Matraini qəbul edən Prezident İlham Əliyev müzakirələrin yaxşı nəticələr verəcəyini bildirməklə vurğulayıb ki, Azərbaycanın təşəbbüsü ilə gələn ay Şuşada keçiriləcək Türk Dövlətləri Təşkilatının qeyri-rəsmi Zirvə görüşü birliyimizə əlavə töhfələr verəcək.

Türk dünyasının gücləndirilməsi, türkdilli dövlətlər arasında əlaqələrin möhkəmlənməsi TDT-yə üzv dövlətlərin qarşılıqlı əməkdaşlıq siyasətinin başlıca istiqamətidir. Türk həmrəyliyi üçün rəmzi məna daşıyan Şuşa görüşündə hazırda beynəlxalq qlobal problem olan nəqliyyat və iqlim məsələləri ilə bağlı beynəlxalq əhəmiyyətli müzakirələrin aparılacağını diqqətə çatdıran Prezident İlham Əliyev türk dünyasının birləşməsi ilə sıx bağlı olan Orta Dəhliz layihəsinin səmərəsinə də aydınlıq gətirdi. Dəhlizin yükdaşımaları artırılmasındakı artan rolunu TDT-yə üzv dövlətlərin digər ölkələrlə birgə fəaliyyətini faydalı addım adlandırdı. «İqlim məsələləri isə bu gün Azərbaycanın gündəliyində duran əsas vəzifələrdən biridir. Bildiyiniz kimi, Azərbaycan bu il COP29 konfransına ev sahibliyi edəcək. Bu, bizim üçün həm böyük məsuliyyətdir, həm də böyük şərəfdir. Bu qlobal tədbirə hazırlıq ərəfəsində, əlbəttə ki, qardaş ölkələrlə bu məsələləri də müzakirə etmək böyük fayda verəcəkdir.» Vurğulandı ki, işğaldan azad edilmiş Füzulidə Özbəkistanın və Qazaxıstanın təşəbbüsü və maliyyə dəstəyi ilə bir orta məktəbin, incəsənət mərkəzinin inşa edilib istifadəyə verilməsi, Ağdamda Qırğızıstanın, Cəbrayılda isə Macarıstanın dəstəyi ilə təhsil ocaqlarının təməlinin qoyulması bu birliyin sarsılmazlıq nümunəsidir. İşğaldan azad edilmiş ərazilərdə geniş yolnəqliyyat infrastrukturunun tikinti və bərpasında , körpü və tunellərin inşasında türkdilli dövlətlərin şirkətlərinin iştirakı Türk dünyasının birlik rəmzidir.



TÜRKPA-nın Azərbaycanda keçirilən toplantısında gündəliyə salınan məsələlər qardaş ölkələr arasındakı münasibətlərin möhkəmlənməsi üçün faydalı olacaq. Təşkilata üzv dövlətlərin nəqliyyat, enerji resurslarının bolluğu, insan kapitalı, artan əhali, demoqrafik vəziyyətin müsbət olması TDT-nin güc potensialıdır. TÜRKPA-nın Zirvə görüşlərində bu potensialın sarsılmaz gücə çevrilməsi ilə bağlı atılan addımlar təşkilatın beynəlxalq məsələlərin müzakirələrində rolunu artırır. Parlament meyarının, diplomatiyasının təsdiqlənən rolunu, ikitərəfli və çoxtərəfli əlaqələrin güclənməsinə müsbət təsirini yüksək qiymətləndirən qonaqlar türk dövlətləri arasında uğurla davam edən qardaşlıq münasibətlərinin faydasını bütünlükdə region dövlətlərinin iqtisadi inkişafı , siyasi sabitliyi baxımından yüksək dəyərləndirdilər. «Bu, əlbəttə ki, böyük nailiyyətdir. Mən də hamını dəvət etmək istərdim - COP29 çərçivəsində burada Parlamentlərarası İttifaqın iclası keçiriləcək və biz qardaş ölkələrin bütün parlament rəhbərlərini dəvət edirik. Bu da mühüm hadisə olacaq. Ümumiyyətlə, iqlim konfransı çərçivəsində çoxlu tədbirlər keçiriləcək. Amma ən əlamətdarlarından biri Parlamentlərarası İttifaqın toplantısı olacaq. Beləliklə, ilin sonuna qədər hələ daha çox görüşəcəyik» sözləri ilə əlaqələrin davamlı olacağını diqqətə çatdıran Prezident İlham Əliyev Türkiyə ilə münasibətləri qardaşlığı əbədi sarsılmazlıq rəmzi adlandırdı.

Qardaş ölkəyə dəyişilməyən, daha da möhkəmlənən səmimi münasibətini Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanın «Türkiyə Azərbaycanın yanındadır» sözləri ilə təsdiqlədi: «Çünki siz də yaxşı bilirsiniz ki, 44 gün ərzində Azərbaycana müxtəlif güc mərkəzlərindən çox böyük təzyiqlər olmuşdu. Hətta bəzi ölkələr bizi hədələyirdilər və belə bir çətin durumda Türkiyənin birmənalı dəstəyi, yenə də deyirəm, bizə əlavə güc verdi, inam verdi və bu dəstəyə görə biz minnətdarıq. Bütün Azərbaycan xalqı bunu bilir və qiymətləndirir.»

Qardaş duyğularından qaynaqlanan bu yanaşma isə Türk dünyasını, Türk Dövlətləri Təşkilatını dünya miqyasında böyük bir güc mərkəzinə çevirir. Böyük coğrafiyanı əhatə edən, etnik, mədəni köklər üzərində möhkəmlənən bu birlik birgə səylərlə, praktiki addımlarla daha da güclənir. «Bu gün nəqliyyat, energetika, ticarət, mədəniyyət sahələrində və digər sahələrdə çox geniş əlaqələr var. Bu gün təhlükəsizliklə, hərbi, hərbi-texniki sahə və təhlükəsizliklə bağlı olan digər sahələr də mütləq diqqət mərkəzində olmalıdır» söyləyən Prezident İlham Əliyev öz haqqını ədalət, güc yolu ilə və beynəlxalq hüquq çərçivəsində həll edən Azərbaycanın təcrübəsinin beynəlxalq səviyyədə ən mükəmməl seçim adlandırdı. Dünya siyasətinin masasındakı əsl həqiqəti diqqətə çatdırdı: «Sənin gücün olmalıdır ki, öz haqqını müdafiə edə biləsən.»

Hələ də sülh sazişinin imzalanmasında qəti mövqeyini bildirməyən Ermənistanın Azərbaycana, Türkiyəyə qarşı ərazi iddialarını əsassız adlandırdı. Bəzi dairələrin artıq tarixin zibilliyinə atılmış Minsk qrupunun fəaliyyətinə ehtiyacın olmadığını bildirdi: «Minsk qrupuna heç bir ehtiyac yoxdur, o, indi fəaliyyət göstərmir. Biz onun fəaliyyət göstərməsinə de-fakto imkan verməyəcəyik. Qaldı ki, de-yure - hüquqi cəhətdən bu, ləğv edilsin və bu, Ermənistanın nə qədər səmimi olmasından xəbər verəcək. Əgər Ermənistan Minsk qrupunun saxlanmasına üstünlük versə, deməli, onların bizə qarşı ərazi iddiaları davam edir.» Eyni zamanda vurğulandı ki, Ermənistanın işğalı altında qalan Azərbaycanın dörd kəndinin sülh , danışıqlar yolu ilə əsl sahiblərinə, qaytarılması və o bölgədə sərhədlərin müəyyən edilməsi göstərir ki, ən çətin məsələlərin belə danışıqlar yolu, vasitəçilərsiz həlli mümkündür. TDT-nin Şuşa Zirvə görüşündə bu cür aktual məsələlərə xüsusi diqqət yetiriləcək. Şuşa görüşünün türk birliyinin sarsılmazlığının nümayişi olacağını vurğulayan Prezident İlham Əliyev tövsiyəsini də diqqətə çatdırdı: Birliyimiz növbəti dəfə nümayiş etdirilməli, konkret məsələlər müzakirə olunmalı, dövlət başçıları, parlament sədrləri, vətəndaş cəmiyyəti, cəmiyyətin bütün təbəqələri birgə səylərlə bir nöqtəyə vurmalıdırlar ki, Türk dünyası güclənsin. Türk dünyasının istəyi, niyyəti işbirliyidir, əməkdaşlıqdır, dostluqdur. Türk birliyi heç kim üçün təhdid mənbəyi deyil heç vaxt olmayacaq. Öz haqqımızı tələb edirik, qoruyuruq, bir-birimizi dəstəkləyirik, qoruyuruq. Tarixi hadisələr təsdiqlədi ki, Türkiyə ilə Azərbaycan arasında 2021-ci ildə imzalanan Şuşa Bəyannaməsi bütün türk xalqlarını birləşdirə yol xəritəsinin davamı kimi diqqət yetirilən iyul görüşlərinin uğur coğrafiyası daha möhtəşəm olacaq. Çünki Müttəfiqlik Aktı eyni, zamanda, əməkdaşlıq formatıdır.

Eyni ideyalar Milli Məclisdə keçirilən TÜRKPA-nın «Türk dünyası üçün yaşıl üfüqlər: yaşıl gündəliyə nail olunmasında parlamentlərin rolu»" mövzusunda 13-cü plenar iclasında, həmçinin tədbirin yekunlarına dair brifinqdə də səsləndirildi. TÜRKPA-nın parlamentlərarası platformaya çevrilməsi, güclənməsi, yeni məzmunla zənginləşdirilməsi birgə səylərin məntiqi nəticəsi kimi dəyərləndirildi. Müasir dövrün aktual problemi olan iqlim dəyişmələrinə qarşı mübarizədə birgə fəaliyyət prinisipləri müzakirə edildi, gələcəkdə atılacaq addımlarla bağlı bir sıra qərarlar qəbul edildi. Cari ilin noyabrında Azərbaycanın ev sahibliyi edəcəyi COP29-un, bu çərçivədə Milli Məclisin və Parlamentlərarası İttifaqın birgə təşkilatçılığı ilə keçiriləcək Parlament Toplantısının həmrəyliyimizin və birgə səylərimizin təşviqi baxımından mühüm platformalar rolunu oynayacağı təklifi dəstəkləndi. Bildirildi ki, TÜRKPA-ya üzv dövlətlərin milli maraqlarının ortaq mövqe baxımından əks olunduğu Bakı Bəyannaməsi qarşılıqlı etimad və dəstəyinin təzahürüdür. Əsas vəzifə Türk dünyasının malik olduğu potensialı dünya miqyasında böyük bir gücə çevirməkdir. Hər toplantı, hər Zirvə görüşü türk əsrinə doğru atılan qətiyyətli addımdır.

***Xuraman İsmayılqızı***

# Quranda qurban kəsmək adlı bir ibadət yoxdur!

Qurban mərasimləri tarix boyunca müxtəlif mədəniyyətlərdə lap qədimlərdən tətbiq olunan bir ibadət formasıdır. Bu mərasimlər haqda ən qədim mənbələrdə- şumer yazılarında çox maraqlı məlumatlar var. Qurbanvermə mərasimi Tanrının birliyini söyləyən bütün dinlərdə (iudaizm, xristianlıq, vaişnavizm, zərdüştlük, islam və s.) vacib prinsiplərdən biridir. Bu səbəbdən bütün dinlərdə qurban mərasimləri var. Təbii ki, bir-birindən fərqli formalarda. Lakin qurban ziddiyyəti ifadələrin formasında gizlənir. Qurban vermək başqa anlayışdır, qurban kəsmək başqa. Üstəlik, ortada olan dinlərdəki qurban anlayışı, həmin dinlərin müqəddəs kitablarındakı qurban anlayışlarından tamamilə fərqlənir. Yazımızda əsasən bu məqama toxunacağıq.

Şərq dinlərində, əsasən zərdüştlük, induizm, vaişnavizm, buddizm, çaynizmdə Tanrıya qansız qurbanlar verilir. Bu qurbanların əsasını təbiətin nemətləri- meyvə-tərəvəz, süd məhsulları, gül-çiçək, ətirli çubuqların tüstüsü təşkil edir.

Semit mənşəli dinlərdə- yəhudilikdə, xristianlıqda və islamda da qanlı qurban mərasimi həyata keçirilir, lakin bir çox tədqiqatçılar bildirir ki, bu, həmin dinlərə aid müqəddəs kitabların təhrif olunması nəticəsində davam etdirilən qədim bir adətdən başqa bir şey deyildir.

Qəribəsi odur ki, müsəlmanlar arasında qurbankəsmə adəti dinin əsas şərtlərindən biri kimi 14 əsrdir ki, tətbiq olunsa da, əslində bu dinin müqəddəs kitabında qurbanın ibadət formalarından sayıldığı haqda heç nə yoxdur. Konkret olaraq, Quranda “Ey müsəlmanlar, qurban kəsin!- deyə bir əmr yoxdur.



**“Kəsdiyiniz qurbanların nə ətləri, nə də qanları Allaha çatır. Ona sadəcə sizin düşüncə və niyyətiniz çatır”. (Quran-Kərim, Həcc 22/37)**



Əksinə, bunun mənasız olduğu vurğulanır. “Kəsdiyiniz qurbanların nə ətləri, nə də qanları Allaha çatır. Ona sadəcə sizin düşüncə və niyyətiniz çatır”. (Həcc 22/37) Burada aydın olur ki, Tanrı insanlara düşüncələrin, niyyətlərin, əməllərin təmiz olmasına çağırır və qurbanın ancaq pisliklərdən əl çəkmə ilə veriləcəyini deyir.

Bir neçə il əvvəl haqqın dərgahına qovuşmuş nüfuzlu türk ilahiyyatçı alimi, professor Yaşar Nuri Öztürk də hesab edirdi ki, Quranda heyvan kəsmək deyə bir ibadət yoxdur: “Çünki Qurban Allaha yaxınlaşmaqdır, Ona isə qan tökərək yaxınlaşmaq olmaz”. Alimin fikrincə, bu sadəcə kökü islamdan əvvələ dayanan adətdir və Həccə gələnlərə yemək təqdim etmək üçün edilib. “Peyğəmbərin səhabələri də heyvan kəsməyib və bunun dini əmr yox, sadəcə adət olduğunu deyiblər”.

https://www.youtube.com/watch?v=L2jYXxkjlvA&t=38s

Bir çox digər nüfuzlu ilahiyyatçılar və islamşünaslar da bildirirlər ki, Quranda heyvan qurban kəsilməsinin vacibliyi haqda bircə cümlə də yoxdur. Məsələn, görkəmli islam tədqiqatçısı İhsan Eliaçık deyir ki, qurban ifadəsi Quranda 11 yerdə keçir, lakin heç birində heyvan kəsilməsi nəzərdə tutulmur. Qurban yalnız Allah yolunda malik olduğun sərvətdən, pis xüsusiyyətlərdən və əməllərdən vaz geçmək mənasında deyilir.

https://www.youtube.com/watch?v=0EOIxf4Nsyo

Göründüyü kimi, Allahın göndərdiyi kitabda ibadət forması olaraq heyvan kəsilməsi mərasimi yoxdur, lakin kontekstdən çıxarılmış ifadələr, səhv tərcümələr, saxta hədislərlə bu və ya bu kimi çox sayda zərərli yəhudi və ərəb adətlərini islam adı ilə formalaşdırıblar.

Halbuki, Quranda İbrahim peyğəmbər və oğlu İsmayılın əhvalatını misal gətirərək insan qurbanını ortadan qaldırmaq məqsədi güdülüb. Çünki, qədimdə bəzi qəbilələrdə insan qurbanları adəti var idi. Burada izah edilir ki, əgər mütləq qan axıdacaqsansa, heç olmasa, insan yox, heyvan kəsə bilərsən, lakin bunun ibadətə heç bir aidiyyatı yoxdur. Əksinə, bütün müqəddəs kitablarda qan tökmək qadağan edilir və qurban anlayışının da qan tökməyə heç bir aidyyatı yoxdur. Yaradan burada peyğəmbər vasitəsilə göstərdiyi nümunədə bu dəhşətli ayini ortadan qaldırmaqla yanaşı, qanlı qurbanın başqa insanlar tərəfindən də təkrarlanmasına icazə verməmişdir.

Bir çox dinlərdə qurbanvermə mərasimi qansız formada, təbii nemətlərdən Tanrıya məcazi mənada təklfi etməklə ona bu nemətlərə görə minnətdarlıq ifadə etməkdən ibarət olmuşdur. Zərdüştlükdə, vaişnavizmdə, çaynizmdə və sair şərq dinlərində bu mərasimlər belə keçirilib. Zərdüştlükdəki qurban mərasimi 20 il əvvəl səhnələşdirdiyimiz qısametrajlı etnoqrafik filmdə canlandırılmışdır.

https://www.youtube.com/watch?v=H54k30G8WiE

Ümumiyyətlə, ən nüfuzlu ilahiyyatşünasların fikrincə, qurban anlayışı yalnız Tanrıya xidməti özündə ehtiva edir, bu səbəbdən də hər bir insan Tanrıya nəyisə qurban verə bilər. Buraya cox sey daxil ola bilər- həm maddi, həm mənəvi cəhətdən. Bu, maddi sərvətinin bir hissəsindən əl çəkmək və onu imkansızlarla paylaşmaq da ola bilər ki, ən böyük qurban bu sayılar. Ya da zərərli vərdişlərindən, həzzverici adətlərindən, haqsız və haram sərvət əldə etməkdən, başqalarına zərər vurmaqdan və digər mənfi xüsusiyyətlərindən əl çəkmək. Bütün dinlərin ümumi fikrinə görə, qurban yalnız saf qəlbdən, təmənnasız, sevgi və səmimiliklə təklif edildikdə Tanrı tərəfindən qəbul olunur.

**Elçin Bayramlı**
**Sağlam Cəmiyyət Hərəkatının rəhbəri**

# Bu şəxslər mənzil növbəsinə dayana biləcək

***Azərbaycanda şəhid ailələlərin bütün üzvləri mənzil növbəsinə dayana biləcək. SİA xəbər verir ki, bunu Milli Məclisin Əmək və sosial siyasət komitəsinin sədri Musa Quliyev “Şəhid adının əbədiləşdirilməsi və şəhid ailələrinə edilən güzəştlər haqqında” qanuna təklif edilən dəyişikliklə bağlı danışarkən deyib.***



*Komitə sədri açıqladı*

Komitə sədrinin sözlərinə görə, bir müddət əvvəl parlamentə adıçəkilən kateqoriyadan olan şəxslərin mənzil növbəsi ilə bağlı müəyyən müraciətlər daxil olurdu ki, Qarabağ qazisi növbədə olarkən dünyasını dəyişirdisə onun ailə üzvləri həmin növbədən avtomatik çıxarılırdı: “Ona görə də bununla bağlı boşluğu qanunvericilikdə aradan qaldırdıq. Statusa sahib olmayan digər ailə üzvləri də mənzil növbəsinə yazıla biləcək”.“Eyni prosesi bir neçə hallarda şəhid ailələri arasında da müşahidə etdik. Ona görə də aidiyyəti üzrə bütün məsələlər müzakirə olundu və qanunvericiliyə müvafiq düzəlişlər edilib. Əgər şəhidin həyat yoldaşı dünyasını dəyişirsə, şəhidin övladları status yaşından keçirdisə, mənzil növbəsinə iddialı ola bilmirdilər.

Bundan sonra yeni dəyişikliklə şəhidin mənzil hüququna malik ailə üzvü dünyasını dəyişərsə şəhid ailəsi statusu olmayan ailə üzvləri də mənzil növbəsinə yazıla biləcək”, - M.Quliyev vurğulayıb.Sədr eyni zamanda bildirib ki, bu günə qədər Azərbaycanda 15 mindən çox şəhid ailəsi üzvü və Qarabağ qazisi mənzillə təmin olunub: “Proses demək olar ki, yekunlaşmaq üzrədir. Yəqin ki, il yarım ərzində bu kateqoriyadan olan bütün vətəndaşlarımız mənzillə təmin olunacaq”.



# Rus gəmiləri Kubada "dejavu" yaşadır





*Rusiyanın ən böyük nüvə sualtı qayığı "Kazan", raket buraxan "Korşakov" freqatı ilə birlikdə Havana limanına yaxınlaşması xəbəri dünya gündəminə sürətlə yayılıb. Rusiya donanmasının simvolu olan Müqəddəs Endryu xaçı daşıyan hərbi gəmilər ABŞ donanmasının diqqət mərkəzinə çevrilib. Göndərilən qrupda nüvə enerjisi ilə işləyən "Yasen" sinifli "Kazan" sualtı qayığı ilə yanaşı, Rusiyanın raket freqatı "Admiral Qorşkov" adlı gəmi də daxildir. Qrupu həmçinin bir cüt köməkçi gəmi, neft tankeri və xilasedici müşayiət edir.*



Rusiya Hərbi Dəniz Qüvvələrinin Baş Komandanı Aleksandr Moiseyev gəmilərin Kubaya gedən yolda "Raket silahlarından istifadəyə dair" təlimlər keçirdiyini açıqlayıb. Moiseyev, təlim zamanı freqatın kompüter modelləşdirməsi ilə, 600 kilometrdən çox uzaqda olan hədəflərə qarşı yüksək dəqiqliyə malik raket silahlarından istifadəni sınaqdan keçirildiyini deyib. Bununla belə, Rusiya Müdafiə Nazirliyinin mənbələri gəmilərin Florida sahillərinin yaxınlığından keçdiyini bildiriblər. Qeyd edək ki, Moskva tərəfindən əvvəlki səfər 1989-cu ildə Rusiyanın sələfi olan Sovet Sosialist Respublikaları İttifaqının sonuncu prezidenti Mikayıl Qorbaçov tərəfindən edilmişdi.

ABŞ tərəfinin məsələ ilə bağlı cavabına gəlincə Ağ Evin sözçüsü Con Kirbi daha əvvəl demişdi ki, ABŞ Rusiya donanmasının gəmilərinin Kubaya səfəri ilə bağlı vəziyyəti yaxından izləyir, lakin bunu "milli təhlükəsizliyə təhdid kimi görmür". Bununla belə bəzi məlumatlara görə ABŞ Hərbi Dəniz Qüvvələri P-8 Poseidon "sualtı ovçu" təyyarəsi ilə Nüvə sualtı qayığını izləyir.

Kuba Xarici İşlər Nazirliyi Rusiya hərbi gəmilərinin iyunun 17-dək paytaxt Havanada qalacağını, onların heç birinin nüvə silahı daşımadığını və onların mövcudluğunun "region üçün təhlükə törətmədiyini" bəyan edib. Kuba administrasiyası eyni zamanda, SSRİ-nin Kubaya nüvə başlığı yerləşdirmək cəhdinin III Dünya Müharibəsinə astanasına gətirdiyi 1962-ci il Kubanın nüvə raket böhranı ilə hər hansı paralellikdən qaçmaq istədiklərini bildirib. Onu da qeyd edək ki, uzun illər ABŞ-nın embarqosu altında olan Kuba, Rusiya hərbi varlığının adaya qayıtmasından məmnun olub.

Eyni zamanda bu səfər, Rusiyanın Karib hövzəsinə hərbi gəmilər göndərdiyi ilk hadisə deyil. Lakin bu dəfəki səfər Rusiya prezidenti Vladimir Putinin sərt xəbərdarlığı ilə həyata keçirilir. Belə ki, Putin son bəyanatında Ukraynanın Qərb müttəfiqlərinin, Ukrayna ordusunu Rusiyadakı hədəfləri vurmaq üçün öz silahlarından istifadə etməsinə icazə vermək qərarına cavab olaraq, Moskva administrasiyasının dünyanın anti-Qərb ölkələrini də oxşar silahlarla təmin edə biləcəyi barədə xəbərdarlıq edib. Eyni zamanda, Rusiya donanması bu missiya ilə Ukrayna nəzarəti altında olan pilotsuz dəniz vasitələrinin Rusiyanın Qara dəniz donanmasına vurduğu zərbələrdən sonra yenidən dəniz gücünü göstərmək istəyir. Digər tərəfdən İsveçrədəki zirvəni qaçırdığını bilən Rusiya, bu yolla ABŞ tərəfini ikitərəfli danışıqlara cəlb etməyi planlayır. Belə ki, Rusiya bu yolla diplomatiya masasına yenidən otura biləcəyini zənn edir. ABŞ isə Rusiyanın bu həmləsinin özünü doğrultmaması üçün hərbi gəmiləri görməzdən gəlir. Bu baxımdan proqnozlaşdırmaq olar ki, Rusiya tərəfi, ABŞ onunla maraqlanana qədər təhlükəli səyahətlərinə davam edəcək.

***Zərdüşt Quluzadə***

## "Əl tutmaq üçün ancaq Qurban bayramını gözləmək lazım deyil"



"Qurban kəsmək, imkansız insanlara əl tutmaq, xeyriyyə işləri görmək hər bir müsəlmanın vəzifəsidir. Qurban bayramı islam dünyasının müqəddəs bayramıdır. Bu bayramda da qurbanlar kəsilir və paylanılır. Amma imkansız insanların qurban kəsmək üçün borca düşərək qurbanlıq heyvanı alması və paylamasını düzgün hesab etmirəm". Bu sözləri SİA-ya açıqlamasında millət vəkili Azər Badamov deyib. Deputat bildirib ki, qurbanlığı ancaq onu alıb verməyinə imkanı yetərli şəxslər etməlidir: "Bu bayram həm də insanlar arasında bir həmrəylik yaradır. Yəni imkanlı şəxslər öz gəlirlərinin bir hissəsini imkansız insanların rifahına yönəldirlər. Amma yaddan çıxartmamalıyıq ki, imkansız insanlara yardım etmək, əl tutmaq üçün ancaq Qurban bayramı gözləmək lazım deyil. Kimin maddi imkanı varsa o şəxs öz maddi gücünə baxaraq mütəmadi şəkildə imkansız insanlara dəstək göstərməlidir. Bu, uca yaradanımıza da xoş gələr".

Məsələ ilə bağlı millət vəkili Ceyhun Məmmədov fikirlərini bölüşüb: "Qurban bayramı İslamın iki müqəddəs bayramından biridir və müsəlman dünyası hər il bu bayramı qeyd edir. Digər bayramlar kimi Qurban bayramının da özünəməxsus xüsusiyyətləri var. Dinimiz imkanı olan hər bir insana qurban kəsməyi tövsiyyə edir. Qurban kəsilərkən onun bir hissəsini ev yiyəsi götürməli, digər hissəsi isə qohumlar və qonşular arasında bölüşdürülməlidir. Bu məsələdə maksimum diqqətli olmalıyıq. Buna görə də insanlar arasında daim maarifləndirmə işləri aparılmalı, cəmiyyət məsələnin önəmini dərk etməlidir. Qurban bayramının əsas hədəf və məqsədlərindən biri imkanı olmayan insanlara yardım əlinin uzadılmasıdır".

**RƏYLƏR** ***Səbinə Hüseynli***

## "Tikinti-Quraşdırma Az NY TŞS" Qapalı Səhmdar Cəmiyyətin 01.01.2023 -31.12.2023-cü il dövrü üçün maliyyə-təsərrüfat fəaliyyəti barədə

### Hesabat

01.01.2023-31.12.2023 - cü il təsərrüfat ilində "Tikinti-Quraşdırma Az NY TŞS" Qapalı Səhmdar Cəmiyyətin gəliri 9 950 350, 04 manat olmuşdur. Onun 9 175 081,76 manatını cəmi xərclər, 775 268,28 manatını mənfəət, 155 053,66 manatını mənfəət vergisi, 620 214,62 manatını xalis mənfəət təşkil edir.

Hesabat dövrü ərzində aidiyyəti şəxslərlə heç bir əqd bağlanmamışdır. 29.12.2023-cü ildə "Bank Respublika" -dan 150 000,00 ABŞ dolları məbləğində kredit alınmışdır. Cəmiyyət təyin edilmiş direktor tərəfindən idarə edilir və cəmiyyət onun iş yeridir, əlavə iş yeri yoxdur. Direktor Səfərov Emin Barat oğludur. Direktora 2 000 manat aylıq əmək haqqı ödənilir. İl ərzində cəmiyyətə investisiya yatırılmamışdır. Dividend kimi 2023-cü maliyyə ilinin 620 214,62 manat xalis mənfəətinin və 2022-ci maliyyə ilindən ödənilməmiş 1 997,90 manat vəsaitin səhmdarlara ödənilməsi qərara alınmışdır.



Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

*Yazı Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyə dəstəyi ilə "uşaq və gənclərin fiziki və mənəvi inkişafı" istiqaməti çərçivəsində hazırlanıb.*

***14 iyun Ümumdünya Qan Donorları Günüdür. BMT-nin 2005-ci ildən etibarən ABO qan qrupu sistemini kəşf edən Nobel mükafatlı alim Karl Landştaynerin doğum gününü 14 iyunu "Ümumdünya Könüllü Qan Donoru Günü" elan edib.***







# Yaşamağım üçün qan verərsən?

Məhz donorların o mükəmməl humanizmləri, anlayışları və empatiyaları sayəsində dünyada milyonlarla insan sağlamlığına qovuşur. Hər il oruclug ərəfəsində Qafqaz Müsəlmanları İdarəsi qanvermə aksiyası təşkil edir, düşünün, bundan daha müqəddəs ibadət, humanizm, mərhəmət ola bilərmi? Qan verib həyat qurtarmaq, bir insanı ölümdən xilas etmək nə qədər dəyərlidir, deyilmi?

Hər il dünyada təxminən 112 milyon donor qeydiyyatdan keçir. Onların təxminən yarısı dünya əhalisinin 15 faizini təşkil edən yüksək gəlirli ölkələrdə yaşayır. Başqa sözlə desək, 62 ölkə könüllülərin təmənnasız verdiyi qan hesabına tam qan ehtiyatlarına malikdir. Qan donorluğu sağlamlığın və həyatın əsas simvolu olaraq xarakterizə edilir, müasir tibbdə yeganə mənbəyi insan olan həyati funksiyaya sahibdir. Qan verəcək şəxs 18-65 yaş aralığında, ən azı 50 kilo çəkidə olmalıdır.

Hər qanvermə üçün cəmi 1 ölçü vahidi qan verilir. 1 vahid qan təxminən 450 ml-dir. Bu nisbət bədənimizdəki qanın yüzdə 8 və ya 9-nu təşkil edir. Kişilər üç aydan bir, qadınlar isə dörd aydan bir qan verə bilər. Qan verdikdən sonra hüceyrələr təxminən 2 ay ərzində bərpa olunur. Ona görə də vaxtaşırı qan verməkdə problem yoxdur. Sağlam insan ildə 3-4 dəfə qan verə bilər.

Bu gün texnologiyanın inkişafına baxmayaraq qan laboratoriya mühitində istehsal oluna bilməyən və yeganə mənbəyi insanlar olan daimi ehtiyacdır. Bu səbəbdən mütəmadi olaraq qan vermək bir çox insanın həyatda qala bilməsi üçün ən vacib ehtiyac ola bilər. Qan donorluğu sosial məsuliyyətdir. Unutmaq olmaz ki, qanvermə könüllülük əsasında, təmənnasız olaraq həyata keçirilir və bir gün qan verən insanın və ya yaxınlarının da buna ehtiyacı ola bilər

Məlumat üçün qeyd edək ki, 2008-2018-ci illər arasında qlobal qan donorluğunda orta hesabla 10,7 milyon vahid artım müşahidə olunub. Sözügedən dövrdə qan donorluğunda ən yüksək artım Cənub-Şərqi Asiyada, Amerika və Afrika qitələrində müşahidə olunub. Dünya üzrə qan donorluğunun 33 faizi qadınlar, 67 faizi isə kişilər tərəfindən təmin edilib. Orta və yüksək gəlirli ölkələrlə müqayisədə aşağı gəlirli ölkələrdə gənclər daha çox qan verirlər.

Qarşıdan Aşura günü gəlir. Əvvəllər Azərbaycanda insanlar bu mərasimlərdə özünə xətər yetirib qan tökürdü, bu dini inanca bağlı bir ayin idi. Hətta azyaşlı uşaqların qanını axıtmaqdan çəkinməyənlər də var idi. Lakin illərdir aparılan maarifləndirmə nəticəsində artıq həmin insanlar özünə xəsarət yetirmək əvəzinə qan verir və beləcə xeyriyyə işi ilə məşğul olurlar. Bu ənənənin formalaşması çox müsbət haldır, daha yaxşısı isə dövlət idarələrinin, özəl müəssisələrin, millət vəkillərinin də bu kampaniyaya könüllü şəkildə qoşulmasıdır.

Qanvermə aksiyalarının təşkil olunmasında əsas məqsəd bu kampaniyaya daha çox insanı dəvət etmək və onların maariflənməsinə dəstək olmaqdır. Bu mənada qanvermə aksiyası gözəl təşəbbüs kimi qiymətləndirilməlidir. Bu insanlar minlərlə insanın həyatını xilas etmiş olurlar. Təkcə bu davranış özü empatiyanı, mərhəməti aşılayır, yardımlaşmanın, köməkləşmənin mahiyyətini qoyur. Sözügedən məsələdə mətbuatın da rolunu da danmaq olmaz. Hər il məlum ayinin icrası ərəfəsində mətbuatda qanvermə aksiyaları ilə bağlı ciddi təbliğat işləri aparılır. Əvvəllər Aşura günündə baş verən hadisələri çəkib mətbuatda yayımlayan jurnalistlər indi qanvermə aksiyalarını təbliğ edirlər. Bu haqda onlarla məqalələr yazıldı, süjetlər, fotoreportajlar hazırlandı. Həqiqətən də media cəmiyyətin maariflənməsində böyük rol oynayır. Biz bunun bir daha şahidi olduq. Qanvermə aksiyasını gündəmə gətirənlər və onun yayılmasına dəstək olanlar məhz jurnalistlərdir.

Azərbaycanda orqan transplantasiyası çoxçeşidli deyil, ona görə donorluq üçün ümumi müraciət yoxdur, amma sadəcə, qan verərək insan həyatı qurtarmaq, bir canlını həyata bağlamaq qədər asan və gözəl nə var? Bəzən sosial şəbəkələrdə talassemiyalı xəstələr üçün qan elanı verilir, könüllülər çox olur, gedib təmin edirlər. Amma o könüllülər qan bankına qan vermir. Düşünürlər ki, onun xeyirxahlıq üçün verdiyi qanını sata bilərlər. Sizin verdiyiniz qan lazımı şəraitdə mühafizə edilir, ehtiyacı olan üçün göndərilir. Əgər qanınızı verməkdən çəkinirsinizsə, o zaman əlaqə vasitəsi qoyun, qan qrupunuza ehtiyacı olan xəstələr, qan axtaranda sizinlə əlaqə yarada bilsinlər.

Bu gün dünyada insanlar ilik donorluğu ilə xərçəng xəstəliyindən əziyyət çəkən milyonlarla can xilas edilər. Sizin sağlamlığınız üçün heç bir təhlükə yaratmayan bu kiçik prosedur xərçəngin yenməyə çalışdığı bir insanı, bir uşağı ölümdən qurtarır. Sizin verəcəyiniz bir şüşə qan bir talassemiya xəstəsini həyata qaytarır. Üstəlik, qan verməklə həm yaxşılıq etmiş olursunuz, həm də sağlamlığınıza xeyirdir. Donorluğu məqsəd, vəzifə, insanlıq borcu kimi görmək lazımdır. Bu gün qana ehtiyacı olanın yerində sabah biz də ola bilərik.




**Lalə Mehralı**

SƏS
14 iyun
2024-cü il

# “Bu anlayışlardan xəbəriniz yoxdursa, həmin oyuna daxil olmayın”

***“Telegram"dan dünyaya sürətlə yayılan "Hamster Kombat" oyunu ilə bağlı mənə çox sual gəlir və bu oyun haqqında yazılanların da çoxu doğru deyil. "Oyun skam - yəni dələduzluq deyil. Həmçinin, şəbəkə marketinqi kimi qatılımçıların pulları əsasında büdcə formalaşdırmır.***



## EKSPERT XƏBƏRDARLIQ ETDİ

Bu mənada oyuna qoşulanlar rahat ola bilərlər. Oyun ”Airdrop” məntiqinə əsaslanır. Bunu kriptovalyuta ilə məşğul olanlar yaxşı bilir. Yəni çox sayda istifadəçi cəlb edilir”. Bu sözləri SİA-ya danışan texno-bloqer Fərid Pərdəşünas deyib.

Onun sözlərinə görə, oyunda virtual pullar yaranır, daha sonra həmin virtual pul birjaya çıxıb real dəyər qazananda iştirakçıların bir qismi arasında paylanır: “Əgər ”Airdrop” və kriptovalyuta anlayışlarından xəbəriniz yoxdursa, bu oyuna girməyi məsləhət görməzdim. Nə elədiyinizi heç özünüz də bilməyəcəksiniz. Oyun ”Telegram”ın TON zəncirinə bağlıdır və məntiq ekrana toxunmaqla valyuta yaradıb daha sonra həmin virtual valyutalardan yeni qazanclar əldə etməkdir. Oyun hazırda istifadəçidən hər hansısa məbləğdə investisiya tələb etmir. Oyunun nə qədər ”Airdrop” verəcəyi və sizə nə qədər düşəcəyi də məlum deyil”.

O bildirib ki, istifadəçi sayı 100 milyonu keçdiyindən gəlirin az olacağı təxmin edilir: “Burada yığdığınız virtual pullarla milyoner olmayacaqsanız. Amma bundan əvvəlki belə oyunlarda 100-800 dollar arası ”Airdrop” yığan dostlarım olub. Məsləhət olunur ki, əgər ”Airdrop” yığmaq istəyirsinizsə tək bu oyunla yox, bir çox kriptovalyuta layihəsini izləyib, davamlı yığmaq məsləhətdir. Bu halda qazanc əldə etmək daha məntiqli olur. Amma bu məntiqi tam anlamadan, digər dələduzluq layihələrinə aldana bilərsiniz. Pula həvəslənib, oyundan və bu tipli ”Airdrop”lardan anlayışı olmadan yatırım etməyi məsləhət görmürəm. Çünki çox sayda skamlar da var”.

# Azerconnect Group və Vodafone Group arasında tərəfdaşlıq müqaviləsi imzalandı

Azərbaycanda İKT və yüksək texnologiyalar sahələrində fəaliyyət göstərən Azerconnect Group vədünyanın aparıcı telekommunikasiya şirkəti Vodafone Group arasında tərəfdaşlıq müqaviləsi imzalanıb. Tərəfdaşlıq müqaviləsi Azerconnect Group-un rəqəmsallaşma, təhlükəsizlik əməliyyatları mərkəzi, şəbəkə texnologiyaları və kommersiya xidmətləri kimi mühüm sahələr üzrə təkmilləşdirmə işlərini sürətləndirəcək. Vodafone ilə tərəfdaşlıq Azerconnect Group-a biznesin səmərəliliyini dahadaartırmaq və əlavə dəyər yaratmaq imkanı verəcək. Azerconnect Group-un Baş direktoru Emil Məsimov bildirib:

”Azerconnect Group Azərbaycanda uğurlu fəaliyyət tarixi olan ən böyük İKT şirkətidir. Bu tərəfdaşlıq sayəsində biz Vodafone-un zəngin qlobal telekommunikasiya təcrübəsindən faydalana bilərik. Hesab edirəm ki, bu tərəfdaşlıq ölkəmizin İKT sektorunun dayanıqlı inkişafına ciddi təkan verəcək”.

Vodafone-un Tərəfdaş Bazarları üzrə Baş İcraçı direktoru Petr Dvorjak əlavə edib:

“Azerconnect Group innovativ şirkətdir və Azərbaycan bazarında liderdir. Tərəfdaşlıq çərçivəsində, telekommunikasiya və biznes texnologiyaları sahələri üzrə təcrübəmizi bölüşmək və müştərilərə göstərilən xidmət keyfiyyətinin artırılması istiqamətində işlərə başlamağı səbirsizliklə gözləyirik”.

**Azerconnect Group haqqında**

Azerconnect Group ölkəmizin dinamik şəkildə inkişaf edən İKT və yüksək texnologiyalar sahələrində fəaliyyət göstərən şirkətdir. Azerconnect Group mobil, internet, beynəlxalq kanalların təşkili və FinTech, AdTech, Media/TV kimi rəqəmsal xidmətlər təqdim edir.

Azerconnect Group müxtəlif ölkələrdə




enerji, telekommunikasiya, yüksək texnologiyalar və tikinti sahələrində fəaliyyət göstərən NEQSOL Holding beynəlxalq şirkətlər qrupunun tərkibinə daxildir.

**Vodafone Group haqqında**

Vodafone Avropa və Afrikanın aparıcı telekommunikasiya şirkətidir. Biz 15 ölkədə 330 milyondan çox müştəriyə mobil və sabit şəbəkə xidmətləri təqdim edirik, (Vodafone Group-un dayandırılmış əməliyyatı kimi hesab olunan Italiya istisna olmaqla) daha 44 ölkədə isə mobil şəbəkələrlə əməkdaşlıq edirik. Biz həmçinin dünyanın ən böyük IoT platformalarından birinə malikik. Afrika qitəsində bizim maliyyə texnologiyaları müəssisələrimiz hazırda 7 ölkədə 79 milyondan çox müştəriyə xidmət göstərir, bu da digər provayderin əməliyyatlarından daha çoxdur.

Bizim məqsədimiz daha yaxşı gələcəyə bağlanmaq üçün texnologiya vasitəsilə həyatları, biznesləri yaxşılaşdırmaq və inklüziv dayanıqlı cəmiyyətlərin tərəqqisinə kömək etməkdir. Ətraf mühitə təsirimizi azaltmaq üçün 2040-cı ilə qədər xalis sıfır emissiya hədəfinə sadiq qalırıq.

Əlavə məlumat üçün www.vodafone.com saytına daxil olun, X @VodafoneGroup ünvanında bizi izləyin və ya www.linkedin.com/company/vodafone ünvanında LinkedIn-də bizimlə əlaqə saxlayın.


# “SƏS” qəzetinə abunə kampaniyası davam edir!



*«SƏS» QƏZETİNƏ ABUNƏ OLMAQ İSTƏYƏNLƏR AŞAĞIDAKI YAYIM ŞİRKƏTLƏRİ İLƏ ƏLAQƏ SAXLAYA BİLƏRLƏR*

1. Azərpoçt Poçtdaşıma Mərkəzi – 0125984955, 0552004544
2. Azərmətbuat Yayım MMC – 0124411991, 0124404694
3. Səma Mətbuat Yayım – 0125940252, 0503336969
4. Pressaİnform MMC – 0125115191, 0504560835, 0553156002
5. Qaya Mətbuat yayım – 0125667780, 0502352343
6. Qasid Mətbuat Yayım – 0124931406, 0124938343
7. F.Ş.Ruhid Hüseynov – 0124349301, 0505357898
8. Ziya LTD – 0124977696, 0503067744

1 nüsxə 1 aylığı 13.20 AZN
6 aylıq 79.20 AZN
1 illik 158.40 AZN

ABUNƏÇİLƏRİMİZİN XİDMƏTİNDƏYİK
Müraciət, şikayət, yazı, təbrik və başsağlıqlarınızı dərc etməyə hazırıq!


# Kondisionerdən istifadə zamanı nələrə riayət olunmalıdır?

“Yay aylarında, xüsusilə də çox isti zamanlarda hər kəsin kondisionerlərdən istifadə etdiyi bir vaxtda unuduruq ki, kondisionerdən düzgün olmayan və şüursuz istifadə hər zaman orqanizmimizə daha çox ziyan vermiş olur. Belə ki, kondisionerlərdə olan, xüsusilə də təmizlənməyən, yuyulmayan və filtrləri dəyişdirilməyən kondisionerlərdə bir çox bakterial infeksiyalar, kif göbələkləri, hətta nadir görülən və ağır fəsadlara yol açan legionella pnevmofilia kimi bakteriyalar da olur”. Bu sözləri SİA-ya açıqlamasında həkim-terapevt Sübhan Hacıyev deyib. Onun sözlərinə görə, çox insanlar olan yerlərdə bu kondisionerlərin istifadəsi zamanı bu cür bakterial infeksiyaların hava yolu ilə tənəffüs yollarından insanlara çox rahatlıqla keçməsi, bronxit, pnevmoniya kimi ağır xəstəliklərə yol aça bilir: “Eyni zamanda, bir çox kondisionerlərin 21-22 dərəcədən daha aşağı dərəcədə olduğu bir vaxtda uzun müddət istifadəsi tənəffüs yollarının allergik xəstəliklərinə yol açır. Buraya daha çox farengit, allergik rinit kimi xəstəliklər daxildir və gözlərdə sulanmaya qədər gətirib çıxaracaq bir prosesdir. Bəzi insanlar var ki, yatanda kondisionerin birbaşa üstlərinə vurmasına üstünlük verirlər. Kondisionerin isə bilavasitə bədənə vurması ağır sinir və əzələ iltihabı ilə nəticələnə bilir, miozitə, hətta üst sinirin iflicinə qədər gətirib çıxara bilir.

Kondisionerlərin istifadəsi üçün müəyyən qazların mübadiləsi baş verir və kondisionerlər işə düşərkən öncə benzol turşusu kimi qazı otaq havasına verir. Əgər bu otaq havası gün ərzində müntəzəm dəyişdirilməzsə baş-beyin-qan dövranına, tənəffüs yollarına təsir göstərir və bu da özünü ürəkbulanma, baş gicəllənmə, baş ağrıları və tənəffüs yollarında qıcıqlanmalar kimi simptomlarla özünü göstərir. Hətta kondisionerdən uzun müddət istifadə edildiyi mühitdə qalındığı zaman insan dərisində quruluğa, sallanmalara gətirib çıxara bilir. Çünki kondisioner quru hava verir və havada olan nəmi azaldır”.



“Buna görə də kondisionerdən hər zaman düzgün istifadə etməyi tövsiyə edirəm. Belə ki, kondisioner dərəcəsi 22-25 dərəcədən çox və ya az olmasın. Kondisionerlərin vaxtlı-vaxtında yuyulmasına, filtrlərinin dəyişdirilməsinə nəzarət etmək lazımdır. Kondisionerlərdən istifadə edərkən onun havasının birbaşa bədənə, tənəffüs yollarına təmas etməməsinə diqqət etmək lazımdır. Kondisionerli otaqlarda isə mütləq şəkildə bir neçə havanın dəyişdirilməsi, sirkulyasiya olunması tövsiyə edilir”, - həkim bildirib.

***Ləman Sərraf***


*Baş redaktor:*
**Bəhruz Quliyev**

Ünvanımız:
**Bakı şəhəri, Üzeyir Hacıbəyli küçəsi, 66.**
**Şəhadətnamə:№ 022492**
**http://www.ses-news.az**
**http://www.sesqazeti.az**
**E-mail: ses@sia.az**
**“ƏLİNCƏ” AZƏRBAYCAN XEYRİYYƏ CƏMİYYƏTİNİN ORQANI.**
**QƏZET 1991-Cİ İL YANVARIN 11-DƏN ÇIXIR**
**Tel: 598-33-90**
**Faks: 493-11-62**

Redaksiyanın mövqeyi ilə müəllifin mövqeyi üst-üstə düşməyə bilər.

**Qəzet bazar və bazar ertəsindən başqa hər gün nəşr olunur**

**Tiraj: 3200**